Son vaxtlara qədər uşaqlıq boynunun displaziyası və preinvaziv xərçənginin təsnifatı haqqında diskusiyalar davam edir. Displaziyaları adətən ağırlıq dərəcəsinə görə üç dərəcəyə bölürlər və intraepitelial xərçəngləri isə ayrıca qrup kimi ayırırlar. Isplaziyaların qrupları həm virusoloji həm də patomorfoloji cəhətdən heterogendirlər. Displaziyaların müxtəlif dərəcələrinin kanserogenezin

müxtəlif mərhələləri olması haqqında əminlik yoxdur.

Papilloma virusların onkogen potensialı müxtəlifdir; displastik proseslər və xərçəng əmələ gətirmə qabiliyyətinə görə papillomaviruslar nisbi olaraq yüksək və zəif risk qrupuna bölünürlər. Xərçəng əmələ gətirmək qabiliyyətinə görə HPV-nin 6,11, 42, 43, 44 tipləri zəif , 16, 18, 48, 56 tipləri isə yüksək risk qrupuna aiddir. HPV-nin 6 və 11 tipləri iti uçlu kondilomaların əmələ gəlməsinə səbəb olaraq, çox vaxt yüngül və orta dərəcəli displaziyalar kimi identifikasiya olunurlar, çox nadir hallarda uşaqlıq boynunun xərçənglərində təsadüf olunurlar. Uşaqlıq boynunun xərçənglərində ən çox təsadüf olunan HPV-nin 16 və 18 tipləridir, onlardan HPV-nin 16 tipi 50-70% hallarda, HPV-nin 18 tipi isə 10-20% hallarda, HPV-nin qalan tipləri isə çox nadir halllarda aşkarlanır (12). HPV-nin ən çox təsadüf olunan 16 tipi mərhələləri olan xəstələr daxil edilmişdir. Xəstələrin illər üzrə paylanması: 2007 - 30 (9,09±0.09%), 2008 - 28 (8,48±0,48%), 2009 - 37 (11,21± 0,21%), 2010 - 45 (13,63±0,63), 2011 - 29 (8,78±0.78), 2012 - 33 (10%), 2013 - 19 (5,75±0,75%), 2014 - 58 (17,57±0,57), 2015 - 51 (15,45±0,45%).

HPV-test yüksək kanserogen riski olan HPV-lərin DNT-lərinin differensasiyası üçün reagent komplektindən istifadə olunub. Kliniki materialda PSR hibridasion-flüoressent aşkarlanma ilə HPV 6,11, 16, 18 növləri müayinə olunmuşdur.

Tədqiqatın nəticələri və müzakirəsi. Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq uşaqlıq boynunun fon, xərçəngönü xəstəlikləri və xərçəngi olan xəstələrin klinik mənzərəsinin xüsusiyyətləri və laborator-instrumental müayinələrin nəticələri sistemləşdirilmişdir.



Şəkil 1. *Uşaqlıq boynu fon, xərçəngönü xəstəlikləri və xərçəngi olan xəstələrin yaşa görə paylanması*

21% hallarda CIN-I-də, 57% hallarda isə CIN-II-III-də təsadüf olunur. HPV 16 və 18 tip növlərinin infeksiyası ilə 67-93% hallarada uşaqlıq boynunun xərçəngləri assosiasiya olunur, 18 tip 16 tipə nisbətən iki dəfə az rast gəlinir. HPV-nin 18 tipi adenokarsinomanın inkişafı ilə əlaqədar olub, yüksək onkogen potensiala malikdir, şiş prosesi sürətlə artır, epitelin differensasiya dərəcəsi aşağı olur və başqa tiplərə nisbətən pis proqnozu var (11)

Tədqiqatin materialllari və üsullari. ATU-nin onkologiya və ginekologiya kafedralarında 2007 - 2015 illər ərzində uşaqlıq boynu fon, xərçəngönü xəstəlikləri və xərçəngləri ilə 330 xəstə müayinə və müalicə olunmuşdur.

Bütün hallarda xəstələrə anamnestik məlumatlar, obyektiv tədqiqat nəticələri, əlavə müayinə metodlarının nəticələri, operativ müdaxilələrin protokolları daxil olan müayinə kartı doldurulmuşdur.

Xəstəlik tarixi və ambulator kartında tam olmayan anamnestik, klinik-diaqnostik, patoloji məlumatları olan xəstələr bu xəstələrin içərisindən çıxarılmışdır. Tədqiqata 110 uşaqlıq boynu fon və xərçəngönü xəstəlikləri (I qrup) və 220 uşaqlıq boynu xərçənginin (II qrup) müxtəlif

Uşaqlıq boynu fon və xərçəngönü xəstəlikləri olan xəstələr 18-70 yaş, uşaqlıq boynu xərçəngi olan xəstələr 21-84 yaşlarda, böyük əksəriyyətlə menopauza və post-menopauza dövlərində olmuşlar.

Uşaqlıq boynu fon və xərçəngönü xəstəlikləri olan xəstələr - 18-30 yaş arasında-17 xəstə (7,27±0,27%), 31-40 yaş arasında - 34 xəstə (30,9±0,9%), 41-50 yaş arasında 36 xəstə (32,72±0,72%), 51-60 yaş arasında 18 xəstə (16,36±0,36%), 61-70 yaş arasında 5 xəstə (4,54±0,54%) olmuşdur. Xəstələrin orta yaşı 44 yaşdır.

Uşaqlıq boynu xərçəngi olan xəstələr - 21-30 yaş arasında-4 xəstə (1,6±0,06%), 31-40 yaş arasında - 46 xəstə (20,6±0,6%), 41-50 yaş arasında 68 xəstə (31,0%), 51-60 yaş arasında 48 xəstə (22,0%), 61-70 yaş arasında 30 xəstə (14,0%), 70 yaşdan yuxarı 24 xəstə (10,8±0,8%) olmuşdur. Xəstələrin orta yaşı 53 yaş əsasən menopauza və post menopauza dövründə təsadüf olunmuşdur.

Uşaqlıq boynunun fon və xərçəngönü xəstəlikləri icərisində ən çox təsadüf olunan xəstəlikləri xroniki endo- ektoservisit - 34 xəstə (30,90±0,9%), displaziya - 26 xəstə (23,63±0,63%), uşaqlıq boynu leykoplagiyası - 15 xəstə (13,63±0,63%), silindrik epitelin ektopiyası -

Cədvəl 1. *Uşaqlıq boynu fon və xərçəngönü xəstəlikləri*

Patologiya	Xəstələrin sayı	%
Xroniki endo- ektoservisit	34	30,90±0,9
Uşaqlıq boynu leykoplagiyası	15	13,63±0,63
Silindrik epitelin ektopiyası	13	11,81±0,81
Uşaqlıq boynu psevdoeroziyası	10	9,09±0,09
Uşaqlıq boynu papilloması	6	5,45±0,45
Yastı kondiloma	6	5,45±0,45
Displaziya	26	23,63±0,63
Cəmi	110	100%

13 xəstə (11,81±0,81%), uşaqlıq boynu psevdoeroziyası - 10 xəstə (9,09±0,09 %), hər birində 6 (5,45±0,45) xəstə olmaqla uşaqlıq boynu papilloması və yastı kondilomaya rast gəlinmişdir.

Cədvəl 2. *Uşaqlıq boynu fon və xərçəngönü xəstəliklərində HPV virusunun paylanması*

Patologiya	Xəstələrin		HPV 6		HPV 11		HPV 16		HPV18	
	sayı	%	sayı	%	sayı	%	sayı	%	sayı	%
Xroniki endo-ektoservisit	34	100%	15	44,11%	10	29,41%	-		-	
Uşaqlıq boynu leykoplagiyası	15	100%	3	20%	-	-	3	20%	-	-
Silindrik epitelin ektopiyası	13	100%	-	-	-	-	-	-	1	7,69%
Uşaqlıq boynu psevdoeroziyası	10	100%	2	20%	2	20%	-	-	-	-
Uşaqlıq boynu papilloması	6	100%	3	50%	3	50%	-	-	-	-
Yastı kondiloma	6	100%	3	50%	3	50%	-	-	-	-
Displaziya	26	100%	2	7,69%	3	11,53%	15	57,69%	-	-

Ən çox təsadüf olunan şikayətlər- selikli və irinli ifrazat, uşaqlıq yolunda göynəmə, qarının aşağı hissəsində ağrılardır. Uşaqlıq boynu və uşaqlıq yolunun güzgülərlə müayinəsi zamanı petexial qansızma, selikli qişanın hiperemiyası, ödem, ağır hallarda xoralaşma aşkar edilir.

Uşaqlıq boynu fon və xərçəngönü xəstəliklərində HPV virusu 35 yaşa qədər qadınların 80%-də rast gəlinir. 50 yaşdan yuxarı qadınların arasında isə 7% hallarda təsadüf olunur. HPV virusu növlərininxəstəliklərə görə paylanmasının tədqiqi zamanı uşaqlıq boynu fon və xərçəngönü xəstəliklərində daha çox HPV 6 və 11 növlərinə təsadüf olunur. Xroniki endo-ektoservisiti olan 34 xəstədən 15-də (44,11%) –HPV 6, 10-da (29,41%) HPV 11aşkarlanıb. Displaziyalı 26 xəstənin 2-də (7,69%) HPV 6, 3-də (11,53%) HPV 11, 15-də (57,69%) HPV 16 aşkarlanıb. Uşaqlıq boynu leykoplagiyası olan 15 xəstənin 3-də (20%) HPV6, 3-də isə (20%) HPV 16 aşkarlanıb. Uşaqlıq boynu papilloması və kondilomalarında HPV 6 (50%) və HPV 11 (50%) növlərinə rast gəlinir. Beləliklə HPV virusunun uşaqlıq

Cədvəl 3. *Uşaqlıq boynu xərçənginin morfoloji xarakteristikası*

Törəmənin histoloji növü	Xəstələrin sayı	%
Cr in situ	14	6,36±0,36
Yastı hüceyrəli buynuzlaşan xərçəng	80	36,36±0,36
Yastı hüceyrəli buynuzlaşmayan xərçəng	85	38,63±0,63
Adenokarsinoma	25	11,36±0,36
Mezonefroid karsinoma	13	5,9±0,09
Verrukoz karsinoma	3	1,36±0,36
Cəmi	220	100 %

boynu fon və xərçəngönü xəstəliklərində ən çox təsadüf olunan növləri HPV 6 və 11-dir.

Uşaqlıq boynunda ilkin şiş ocağı əksər müşahidələrdə ektoserviksdə yerləşmişdir (119; 54,09±0,09%). Endoserviks kanalı divarı (58; 26,36±0,36%), uşaqlıq boynunun xarici və daxili hissələri arasındakı keçid zona (43; 19,54±0,54%) hallarda zədələnmişdir. 21 xəstədə (9,54±0,54%) proses istmusa və uşaqlıq yolu uşaqlıq tağlarına diffuz yayılmışdır. Şişin əsasən dəqiq sərhəddi yoxdur (144; 65,45±0,45%), 76 (34,54±0,54%) xəstədə isə məhdudlanmış dairə, çoxbucaqlı, ellips formasındadır. Törəmə əsasən ya hiperemik (113; 51,36±0,36%), və ya leykoplagik (96; 43,63±0,63%) yastı endofit sahələr şəklindədir. Cox az xəstələrdə isə polipoz (5; 2,27±0,27%), kistoz (3; 1,36±0.36%), polipoz kistoz (3; 1,36±0.36%) görünüşdə və ekzofit xarakterdədir.

UBX diaqnozlu xəstələrin çox hissəsində şiş toxuması yastı hüceyrəli buynuzlaşan xərçəng (80; 36,36±0,36%) və yastı hüceyrəli buynuzlaşmayan xərçəng (85; 38,63±0,63%), 25 (11,36±0,36%) xəstədə adenokarsinoma, 13-ündə (5,9±0,09%) mezonefroid karsinoma, 14(6,36±0,36%) xəstədə cancer in situ, 3 (1,36±0,36%) xəstədə verrukoz karsinoma aşkarlanmışdır.

Cədvəl 4. *Uşaqlıq boynu xərçənginin patohistoloji növlərində HPV virus növlərinin paylanması*

Törəmənin histoloji növü.	Xəstələrin		HPV 6		HPV11		HPV 16		HPV 18	
	sayı	%	sayı	%	sayı	%	sayı	%	sayı	%
Cr in situ	14	100	2	14,28	2	14,28	6	42,85	-	-
Yastı hüceyrəli xərçəng	165	100	1	0,6	1	0,6	121	73,33	4	2,42
Adenikarsinoma	25	100	-	-	1	4	2	8	22	88
Mezonefroid karsinoma	13	100	1	7,69	-	-	-	-	-	-
Verrukoz karsinoma	3	100	-	-	-	-	1	33,33	-	-

Beləliklə, uşaqlıq boynu yastı epitel xərçəngi zamanı HPV 16 növünə (165 xəstədən 121-də 73,33%) , adenokarsinoması zamanı isə HPV 18 (25 xəstədən 22-də 88%) növünə rast gəlinir.

Açar sözlər: uşaqlıq boynu, kanserogen amil, HPV

ƏDƏBIYYAT

1. Андосова Л.Д. Конторщикова К.Н., Качалина О.В. Современные представления о роли вируса папилломы человека в генезе цервикального рака.// Медицинский альманах, 2011. №5, с.116-120.
2. Афанасьев М.С. Алешкин В.А, Афанасьев С.С. и др. Вирусно-бактериальная природа дисплазии и рака шейки матки.// Вестн. РАМН., 2004,. № 6, с. 35-39.
3. Бестаева Н.В., Назарова Н.М., Прилепская В.Н. и др. Папилломавирусная инфекция, обусловленная вирусом папилломы человека 52-го и 58-го типов, и ее роль в развитии цервикальных интраэпителиальных неоплазий.// Акушерство и гинекология, 2013, № 7, с. 45-50.
4. Дисаи Ф.Дж. Клиническая онкогинекология: пер. с англ. под ред. Е.Г. Новиковой. М.: Рид Элсивер, 2011, т.1, с. 316
5. Короткий Н.Г., Уджуху В.Ю. Инфекции, передающиеся половым путем: учебно-методическое пособие. М. Российский государственный. медицинский Университет, 2006, с.110
6. Мазуренко, Н.Н. Роль вирусов папиллом в канцерогенезе шейки матки.// Современная онкология, 2003, №1, с.37-44.
7. Назарова Н.М., Прилепская В.Н., Суламанидзе Л.А., Мзарелуа Г.М., Бестаева Н.В. Папилломавирусная инфекция: распространенность, диагностика и лечение.// Лечащий врач, 2013, № 11, с.15–18.
8. Alemany L., de Sanjose S., Tous S., Quint W. et al. Time trends of human papillomavirus types in invasive cervical cancer, from 1940 to 2007.// International J. of Cancer, 2014, v.135, p.88-95.
9. Bahmanyar R., Paavonen J., Naud P. et al. Prevalence and risk factors for cervical HPV infection and abnormalities in young adult women at enrolment in the multinational PATRICIA trial// Gynecologic Oncology, 2012, v.127, p.440-450.
10. Castellsague X., Naud P., Chow S., Wheeler C. et al. Risk of newly detected infections and cervical abnormalities in women seropositive for naturally acquired human papillomavirus type 16/18 antibodies: analysis of the control arm of PATRICIA.// J. Infections Disease, 2014, v.210, p. 517-534.
11. Castle P., Stoler M., Wright Jr T. et al. Performance of carcinogenic human papillomavirus (HPV) testing and HPV 16 or HPV 18 genotyping for cervical screening of women aged 25 years and older: a subanalysis of the ATHENA study.// Lancet Oncology, 2011, №12, p. 880-890.
12. Chen A., Heideman D., Boon D. et al. Human papillomavirus 45 genetic variation and cervical cancer risk worldwide.// J. of Virology, 2014, v. 88, p.4514-4521.
13. Dane S. Screeneng properties of human papillomavirus testing for predicting cervical intraepithelial neoplasia in atypical squamous cells of undetermined significance and low-grade squamous intraepithelial lesion smears: a prospective study.// Annals Diagnostic Pathology, 2009, v.13, p. 73-77.
14. De Vuyst H., Clifford G., Nascimento M. Prevalence and type distribution of human papillomavirus in carcinoma and intraepithelial neoplasia of the vulva, vagina and anus: a meta-analysis.// International J. of Cancer, 2009, v.124, p.1626.
15. Dinkelspiel H., Fetterman B., Poitras N. et al. Cervical cancer rates after the transition from annual Pap to 3-year HPV and Pap.// J. of Lower Genital Tract Disease, 2014, v.18, p.57-60.
16. Doorbar J., Quint W., Banks L. et al. The Biology and Life-Cycle of Human Papillomaviruses In ICO/WHO Monograph. HPV and disease prevention.// Vaccine., 2012, v.30, p.55.
17. Guan P., Howell-Jones R., Li N. et al. Human papillomavirus types in 115 HPV-positive women: a meta-analysis from cervical infection to cancer.// International J. of Cancer, 2012,

v.131, p.2349-2359.
18. Hesselink A., Berkhof J. et al. Clinical validation of the HPV-assay, a novel real-time PCR assay for detection of high-risk human papillomavirus DNA by targeting the E7 region.// J. Clinical Microbiology, 2014, v.52, p.890-896.
19. Littell R., Kinney W., Fetterman B. et al. Risk of cervical precancer and cancer in women aged 30 years and older with an HPV-negative lowgrade squamous intraepithelial lesion screening result.// J. Low Genit. Tract Dis., 2011, v. 15, p. 54-59.
20. McMurray H., Nguyen D., Westbrook T. et al. Biology of human papillomaviruses.// International J. of Experimental Pathology, 2001, v.82, p.15-33.
21. Moscicki A., Ma Y. et al. The role of sexual behavior and HPV persistence in predicting repeated infections with new HPV types.// Cancer Epidemiology Biomarkers Previews, 2010, v.19, p.2055-2065.
22. Quint W., Jenkins D., Molijn A. et al. One virus, one lesion-individual components of CIN lesions contain a specific HPV type.// J. Pathology, 2012, v. 227, p. 62-71.
23. Petry K., Menton S. et al. Inclusion of HPV testing in routine cervical cancer screening for women above 29 years in Germany: results for 8468 patients.// British J. Cancer, 2003, v.88, p.1570-1577.
24. Sharma M., Bruni, L., Diaz, M. et al. Using HPV prevalence to predict cervical cancer incidence.// Internaional J. Cancer, 2013, v.132, p.1895-1900.

AZƏRBAYCAN ONKOLOGİYA JURNALI 1' 2017

АНАЛИЗ ЧАСТОТЫ ОСЛОЖНЕНИЙ ЛУЧЕВОЙ ТЕРАПИИ У ПАЦИЕНТОВ РАКОМ ПРЕДСТАТЕЛЬНОЙ ЖЕЛЕЗЫ

И.Г.Исаев, Ф.А. Гулиев, К.С. Акперов, Н.Р.Зейналова
Национальный центр онкологии, г. Баку

ANALYSIS OF THE FREQUENCY OF COMPLICATIONS OF RADIATION THERAPY IN PATIENTS WITH PROSTATE CANCER

İ.Isayev, F.Guliyev, K.Akbarov, N.Zeynalova

Despite all the modern achievements and technical support in the field of radiotherapy, in real conditions it is impossible to deliver the required total dose to the target and completely avoid exposure to healthy tissues, especially with deeply located tumors such as prostate cancer. As a result of irradiation of normal tissues and organs, radiation reactions and complications of varying severity arise, which significantly impair the quality of life of patients.The aim of our study was to analyze the frequency of complications of radiation therapy in patients with prostate cancer.In order to increase the dose in the target and at the same time minimize it in the surrounding healthy tissues and organs (such as the rectum, bladder, pelvic bone, bulb of the penis, head of the femur, etc.), precision RT methods were used - 3D conformal radiotherapy, Intensity Modulated Radiotherapy (IMRT) and Volumetric Arc Therapy (VMAT). Our results showed that high precision external beam radiotherapy techniques allow to increase of efficacy of the treatment while reducing both probability and severity of complications.

Key words: prostate cancer, radiotherapy, treatment toxicity.

Главной целью лучевой терапии является уничтожение опухолевых клеток при условии максимальногощажения окружающих нормальных органов и тканей[1-4]. Однако, несмотря на все современные достижения и техническое обеспечение в области лучевой терапии, в реальных условиях невозможно подвести к новообразованию необходимую суммарную дозу и полностью избежать облучения здоровых тканей, особенно при глубоко расположенных опухолях[3,4,5]. В результате облучения нормальных тканей и органов возникают лучевые реакции и осложнения различной степени тяжести, которые существенным образом ухудшают качество жизни пациентов [6-10].

Все более широкое использование лучевой терапии рака предстательной железы в рутинной клинической практике наряду с повышением эффективности лечения неизбежно влечет за собой повышение вероятности и степени тяжести лучевых реакций и осложнений, что заставило нас более детально изучить данную проблему [11,12,13].

Целью нашего исследования явилось изучение анализа частоты осложнений лучевой терапии у пациентов раком предстательной железы.

Материалы и методы: В исследование были включены 142 пациента, получивших лучевую терапию в комбинации с гормонотерапией в период с июля 2001 по ноябрь 2015 года. ЛТ в комбинации с ГТ. Общая характеристика пациентов представлена в таблице 1.

В данной группе 16 (11,3%) пациентов были в возрасте 50-59 лет. В возрасте 60-69 и старше 70 лет на момент начала лечения находились 62 (43,7%) и 64 (45,1%) пациента соответственно.

Среди сопутствующих заболеваний в данной группе следует выделить хроническую ишемическую болезнь сердца - 19 (13,4%), гипертоническую болезнь - 37 (26,1%), сахарный диабет - 16 (11,3%), заболевание Паркинсона - 1 (0,7%) больной. У некоторых пациентов отмечались 2 и более сопутствующих заболевания.

Всем пациентам этой группы облучение проводилось в условиях 3D- планирования на линейном ускорителе электронов Clinac 2300/CD (VarianMedicalSystems, США). Объем облучения включал ПЖ и семенные пузырьки у пациентов низкого и промежуточного риска. У больных высокого риска в зону облучения были включены также регионарные ЛУ. Разовая очаговая доза (РОД) составила 2 Гр, 5 фракций в неделю. Медиана суммарной очаговой дозы (СОД), подведенной на ПЖ, была равна 70 Гр, на регионарный лимфатический аппарат – 42 Гр. Пациентам с промежуточным и высоким риском ГТ была проведена за 3 месяца до ЛТ в объеме максимальной андрогенной блокады. В группе низкого риска пациентам было рекомедовано проведение ГТ (медикаментозная кастрация) без использования антиандрогеннов. Планируемая продолжительность ГТ составляла 24 месяца.

Лучевая терапия проводилась на линейных уско-

Таблица 1. *Общая характеристика пациентов*

Параметры	Результаты
Количество пациентов, абс. число	142
Возраст, (лет)	67,6±0,5 (50-83)
Предоперационный уровень общего ПСА, (нг/мл)	14,9±0,8 (3,05-52,4)
Плотность ПСА,(нг/мл^2)	0,4±0,03 (0,04-1,46)
Клиническая стадия, (%):	
cT1c	15 (10,6)
cT2a	39 (27,5)
cT2b	41 (28,9)
cT2c	21 (14,8)
cT3a	17 (12,0)
cT3b	9 (6,2)
Индекс Глисона, (%):	
6	78 (54,9)
3+4	27 (19,0)
4+3	12 (8,5)
≥8	25 (17,6)
Группы риска по классификации D'Amico, (%):	
низкий	27 (19,0)
промежуточный	45 (31,7)
высокий	70 (49,3)

рителях (VarianMedicalSystems, США) с энергией фотонных пучков 6-15 МэВ. В случаях вероятности метастазов в ЛУ более 15% и выше, рассчитанной по таблице Morikawa и Roach, в поля облучения включались как ПЖ и семенные пузырьки, так и регионарные ЛУ до уровня бифуркации аорты (обтураторные, общие, наружные и внутренние подвздошные, предкрестцовые) [14]. В остальных случаях облучению подвергалась только ПЖ и семенные пузырьки, причем объем облучаемых тканей включал также окружающие ткани в границах, достаточных для того, чтобы покрыть область возможного субклинического распространения опухоли.

С целью повышения дозы в мишени и при этом ее минимизации в окружающих тканях и органах (таких как прямая кишка, мочевой пузырь, кости таза, луковица полового члена, головки бедренных костей и др.) применялись прецизионные методы дистанционной ЛТ – 3D конформальная радиотерапия, а с 2010 года - модулированная по интенсивности лучевая терапия (Intesity Modulated Radiotherapy, IMRT) и волюметрическая модулированная арк-терапия (VolumetricArcTherapy, VMAT). Разовая очаговая доза (РОД) составляла 2 Гр за фракцию, 5 фракций в неделю досуммарной очаговой дозы (СОД) 46-50 Гр на весь таз – региональные ЛУ, семенные пузырьки и ПЖ (Рис. 1).

На область высокого риска, семенные пузырьки и железу, подводили 72-76 Гр (Рис. 2).

Оценка токсичности возникшей в результате лучевой терапии производилась по стандартам RTOG/ EORTC (RadiationTherapyOncologyGroup/ European Organizationfor Researchand Treatmentof Cancer) и CTCAE v.4.0 (Common Terminology Criteriafor Adverse Events) [15,16].

Результаты и обсуждение. Риск лучевых повреждений закономерно возрастает по мере увеличения суммарной поглощенной дозы. При этом существуют диапазоны доз, в которых вероятность осложнений возрастает по линейной зависимости. Это обстоятельство дало основание ввести такой показатель, как доза, сопряженная с определенным, выражаемым в долях или процентах, риском формирования осложнений. Так, D_5 соответствует 5% вероятности возникновения повреждений; D_{10}–10%; D_{15}–15% и тд. Значение таких доз определяется на основании анализа больших массивов клинических результатов. Как правило, предельными дозами используемыми при лечении онкологических больных, являются D_{10}–D_{15}. Более высокие уровни дозовых



Рисунок 1. *Дистанционная ЛТ региональных ЛУ, семенных пузырьков и простаты методом VMAT. А – аксиальный, Б – фронтальный, В – сагиттальный срезы.*



Рисунок 2. *Дистанционная ЛТ зоны высокого риска – семенных пузырьков и простаты методом VMAT. А – аксиальный, Б – фронтальный, В – сагиттальный срезы.*

нагрузок в клинике практически не применяются, поскольку показано, что превышение указанных пределов не только чревато высоким риском осложнений, но и не сопровождается существенным повышением эффективности лучевого лечения по критерию выживаемости больных[6,17].

Известно, что ранние или острые радиационные реакции возникают во время или сразу после

облучения из–за нарушения репарации быстро регенерирующих тканей. Эти реакции, как правило, разрешаются самостоятельно или же в результате симптоматической терапии и редко препятствуют завершению лучевой терапии в запланированном объеме[5,7,18].

Поздние осложнения могут возникнуть спустя много месяцев или лет после завершения лучевой терапии. Именно ими определяется максимальная токсичность лечения. Частота поздних осложнений возрастает по мере приближения к предельно толерантным дозам нормальных тканей. Поздние осложнения не разрешаются сами по себе, наоборот, они склонны со временем прогрессировать. Их развитие никак не связано с наличием и тяжестью ранних осложнений лучевой терапии. Патогенез, как полагают, связан с разрушением эндотелия или исчерпанием запаса стволовых клеток в здоровых тканях. Продолжительность восстановительного периода в нормальных тканях зависит от числа сохранившихся стволовых клеток. Кроме того, скорость восстановления и тяжесть побочных эффектов лучевой терапии зависит от объема облученных тканей. Если в облученных тканях не осталось стволовых клеток, а замещения за счет окружающих тканей не происходит, лучевые повреждения будут сохраняться долго. Таким образом, поздние лучевые реакции никак не зависят от ранних и возникают, несмотря на восстановление, после острых реакций[7,11,19].

К основным факторам, определяющим частоту возникновения и степень тяжести лучевых реакций и осложнения можно отнести: величину фракции (разовая очаговая доза, РОД) – как дистанционной радиотерапии, так и брахитерапии, суммарные дозы, режим фракционирования дозы, объем облучаемых тканей (мы учитывали толерантные дозы для 1/3, 2/3 и 3/3 объема органов риска), сопутствующие заболевания, мощность излучения[5,12,16,18].

Совершенствование методики лучевой терапии, проведение расчетов с помощью линейно–квадратической модели и с анализом гистограммы доза–объем (DVH) позволили вычислять биологически эффективные дозы в отдельности как для опухоли, так и для окружающих здоровых тканей, благодаря чему становится возможным предотвращениетяжелых лучевых реакций и осложнений[15,19,20].

При проведении лучевой терапии рака предстательной железы основными органами риска являются прямая кишка, мочевой пузырь, кожа и подкожная клетчатка, мышцы, головки бедренных костей.

С целью выбора оптимального метода лечения нами был проведен сравнительный анализ ранней и поздней токсичности в группе больных, получивших радиотерапию. При этом оценивались как местные, так и общие реакции и осложнения.

Нами были изучены токсические проявления при использовании различных методов лечения больных раком предстательной железы местно-распространенных стадий. С этой целью мы пользовались классификацией RTOG/EORTC «Toxicity criteria of the Radiation Therapy Oncology Group (RTOG) and the European Organization for Research and Treatment of Cancer (EORTC) и Национального института рака США (Common Terminology Criteria for Adverse Events v3.0- CTCAE V3.0), опубликованным в августе 2006 года, согласно которой выделяют ранние и поздние лучевые повреждения. К ранним относят лучевые повреждения, развивающиеся в процессе лучевой терапии или в ближайшие 3 месяца после нее. Поздними считают местные лучевые повреждения, развившиеся после указанного срока[15,16].

Следует отметить, что 138 (97,2%) из 142 пациентов успешно окончили запланированный курс лучевой терапии. Сто тридцать два (92,9%) больных получили все 76-78 Гр назначенной дозы. Семь пациентов (4,9%) получили 70 Гр в связи со старым протоколом радиотерапии на момент начала исследования. В трех случаях лечение пришлось ограничить 66-ю Греями по причине обострения сопутствующих заболеваний: в одном случае обострение бронхиальной астмы, в одном – почечной недостаточности ив одном случае по причине прогрессирующей сердечной недостаточности.

С целью оценки гематологической токсичности мы изучали содержание в крови гемоглобина, лейкоцитов и тромбоцитов до начала лечения, а также максимально низкие показатели в период лечения.

Средняя концентрация гемоглобина на момент поступления в стационар составила в 123,2 г/л (SD – 18,3). Среднее от минимальных значений было: 109,2 г/л (SD – 18,1). Суммарно, у 88 (61,9%) больных наблюдалась анемия той или иной степени. При этом у 62 (43,7%) больных развилась анемия I степени по RTOG Acute Toxicity Criteria, у 24 (16,9%) – II степени, и лишь у двух пациентов в период лечения развилась анемияIII степени, больше связанная с почечной недостаточностью. Анемия I и II степеней была ликвидирована с помощью назначения препаратов железа и поливитаминов, III степени - переливанием крови и не явилась причиной прекращения лечения. Анемии IV степени не наблюдалось.

Среднее число лейкоцитов до начала лечения составило 6,2·109 /л (SD – 2,8·109 /л). Среднее от минимальных значений было: 4,1·109 /л (SD – 2,3·109/л). Всего у 46 (32,3%) больных наблюдалась лейкопения той или иной степени.В результате лечения лейкопения I степени наблюдалась у 31 (21,8%) больных, II степени – в 12 (8,5%) случаях, III степени – у 3-х (2,1%) пациентов. ЛейкопенииIV степени не наблюдалось. У 96 (67,6%) больных содержание лейкоцитов в периферической крови не опускалось ниже нормальных показателей.

С целью определения острой гематологической токсичности мы так же исследовали содержание тромбоцитов в периферической крови. Среднее число тромбоцитов до начала лечения составило 297,6·109 /л (SD – 32,8·109/л). Среднее от минимальных значений было: 211,3·109 /л (SD – 2,3·109/л). Всего у 38 (26,7%) больных наблюдалась тромбоцитопения той или иной степени. В результате лечения тромбоцитопенияI степени наблюдалась у 29 (20,4%) больных, II степени – в 9 (6,3%) случаях. ТромбоцитопенииIII - IV степени не наблюдалось. У 104 (72,3%) больных содержание тромбоцитов в периферической крови не опускалось ниже нормальных показателей.

В таблице 2обобщенно представлена ранняя гематологическая токсичность радиотерапии.

Нами также были изучены местные реакции со стороны кожи и смежных органов малого таза – прямой кишки и мочевого пузыря (таблица 3).

Острые лучевые ректиты I,II и III степени наблюдались у 95 (66,9%), 32 (22,5%) и 8 (5,6%) больных соответственно. Реакции IVстепени тяжести не встречались. Все лучевые реакции со стороны прямой кишки быстро купировались и не стали причиной перерывов в лечении. Для их лечения мы применяли инфузионную терапию, спазмолитики, обезболивающие, лоперамид, местную терапию (суппозитории, содержащие стероиды, гепарин, лидокаин, вяжущие средства).

Циститы I,IIи IIIстепени наблюдались в 22 (15,5%),87 (61,3%) и 16 (11,3%) случаях соответственно. Лечение острых лучевых циститов явилось

Таблица 2. *Частота и степень тяжести ранней гематологической токсичности радиотерапии*

Показатель	Степень острой токсичности					Всего
	0	I	II	III	IV	
Анемия	54 (38%)	62 (43,7%)	24 (16,9%)	2 (1,4%)	0	142 (100%)
Лейкопения	96 (67,6%)	31 (21,8%)	12 (8,5%)	3 (2,1%)	0	142 (100%)
Тромбоцитопения	104 (72,3%)	29 (20,4%)	9 (6,3%)	0	0	142 (100%)

Так же, одной из часто встречающихся реакций была тошнота/рвота, которая в некоторых случаях значительно снижала качество жизни пациентов, способствовала снижению веса, ухудшению общего состояния. Острая гастроинтестинальная токсичность I и II степени наблюдалась в 42 (29,6%) и 19 (13,4%) случаях соответственно. Не было зафиксировано ни одного случая III–IV степени тяжести. Симптомы токсичности II степени купировались с помощью антиэметиков (онданцентрон, церукал), дексаметазона, омепразола, спазмолитиков и не являлись причиной перерывов в лечении.

наиболее сложной проблемой среди всех осложнений. Применялись длительные курсы стероидных и нестероидных противовоспалительных препаратов, обезболивающие, уросептики.

Лучевые эпидермиты наблюдались значительно реже, в основном, у пациентов с ожирением и почти всегда локализовались в области складки – “жирового фартука”. Эпидермиты I и II степени наблюдались в 19 (13,4%) и 7 (4,9%) случаях соответственно.

С целью оценки поздней токсичности лечения были изучены лучевые осложнения со стороны слизистой прямой кишки и мочевого пузыря, сроки воз-

Таблица 3. *Выраженность местных лучевых реакций при радиотерапии больных раком предстательной железы.*

Лучевые реакции	I степень	II степень	III степень
Ректит	95 (66,9%)	32 (22,5%)	8 (5,6%)
Цистит	22 (15,5%)	87 (61,3%)	16 (11,3%)
Эпидермит	19 (13,4%)	7 (4,9%)	0

никновения которых во всех группах мало отличались и составили в среднем 1,5 (0,75 – 2,5) года.

Диагноз поздних осложнений устанавливался на основании жалоб пациентов, осмотра, эндоскопии (цистоскопия, ректоскопия), УЗИ, МРТ. При необходимости проводилось патогистологическое и цитологическое исследования материалов, взятых из пораженных участков, с целью исключения рецидивов и метахронного рака.

Основными симптомами поздних эпителиитов явились атрофия слизистой и стеноз. Для лечения поздних эпителиитов проводилась длительная местная терапия средствами, стимулирующими репаративные процессы (метилурацил, актовегин, облепиховое или шиповниковое масло), обволакивающими средствами.

Явления позднего ректита I степени – легкая диаррея, спазмы, выделения слизи и крови в малом объеме наблюдались в 21 (14,8%) случаях. Ректитов более высшей степени тяжести не встречалось. Лечение состояло из соблюдения диеты, применения спазмолитиков, эубиотиков, витаминов, стимуляторов репарации, обволакивающих средств.

Поздний лучевой цистит I степени был диагностирован у 37 (26,1%) больных. Наиболее часто встречающимися симптомами заболевания были легкое учащение диуреза, жжение, микрогематурия, при цистоскопии – атрофия эпителия, единичные телеангиоэктазии. Во всех случаях цистит был купирован с помощью уросептиков и стимуляторов репарации, при этом необходимости во внутрипузырном введении препаратов не возникало.

Заключение. Таким образом, результаты проведенного исследования показали, что применение высокотехнологических прецизионных методов дистанционной лучевой терапии в лечении рака предстательной железы наряду с высокой эффективностью, позволяет добиться низких показателей ранних и поздних лучевых осложнений.

Ключевые слова: рак предстательной железы, лучевая терапия, осложнения лечения.

ЛИТЕРАТУРА

1. Hoyer M., Muren L., Glimelius B. The evolution of radiotherapy techniques in the management of prostate cancer.//Acta Oncol. 2015,v.54, p.821-824.
2. Kang S.W., Chung J.B., Kim J.S., Kim I.A. et al. Optimal planning strategy among various arc arrangements for prostate stereotactic body radiotherapy with volumetric modulated arc therapy technique.//Radiol Oncol. 2017,v.51, p.112-120.
3. Mason M., Moore R., Jones G., Lewis G. et al. Radiotherapy for Prostate Cancer: is it 'what you do' or 'the way that you do it'? A UK Perspective on Technique and Quality Assurance.// ClinOncol. 2016,v.28, p.92-100.
4. Nabavizadeh N., Elliott D., Chen Y., Kusano A. et al. Image Guided Radiation Therapy (IGRT) Practice Patterns and IGRT's Impact on Workflow and Treatment Planning: Results From a National Survey of American Society for Radiation Oncology Members.//Int J Radiat Oncol Biol Phys. 2016, v.94, p.850-857.
5. Saad A., Goldstein J., Lawrence Y., Spieler B. et al. Classifying high-risk versus very high-risk prostate cancer: is it relevant to outcomes of conformal radiotherapy and androgen deprivation? //Radiat Oncol.2017, v.12, p. 14-16.
6. Stankovic V., Nikitovic M., Pekmezovic T., Pekmezovic D. et al. Toxicity of the lower gastrointestinal tract and its predictive factors after 72Gy conventionally fractionated 3D conformal radiotherapy of localized prostate cancer.//J BUON. 2016,v.21, p.1224-1232.
7. Diao K., Lobos E., Yirmibesoglu E., Basak R. et al. Patient-reported quality of life during definitive and postprostatectomy image-guided radiation therapy for prostate cancer.// Pract Radiat Oncol. 2017, v.7, p.117-124.
8. Mirjolet C., Walker P., Gauthier M., Dalban C. et al. Absolute volume of the rectum and AUC from rectal DVH between 25Gy and 50Gy predict acute gastrointestinal toxicity with IG-IMRT in prostate cancer.//Radiat Oncol. 2016, v.11, p.145-147.
9. Shimizuguchi T., Nihei K., Okano T., Machitori Y. et al. A comparison of clinical outcomes between three-dimensional conformal radiotherapy and intensity-modulated radiotherapy for prostate cancer.//Int J Clin Oncol. 2017, v.22, p.373-379.
10. Bedford J., Smyth G., Hanson I., Tree A. et al. Quality of treatment plans and accuracy of in vivo portal dosimetry in hybrid intensity-modulated radiation therapy and volumetric modulated arc therapy for prostate cancer.//Radiother Oncol. 2016, v.120, p.320-326.
11. Jereczek-Fossa B., Ciardo D., Ferrario S., Fossati P. et al. No increase in toxicity of pelvic irradiation when intensity modulation is employed: clinical and dosimetric data of 208 patients treated with post-prostatectomy radiotherapy.//Br J Radiol. 2016, 89(1063):20150985. doi: 10.1259/bjr.20150985
12. Drozdz S., Schwedas M., Salz H., Foller S., Wendt T. Prostate cancer treated with image-guided helical TomoTherapy® and image-guided LINAC-IMRT : Correlation between high-dose bladder volume, margin reduction, and genitourinary toxicity.// Strahlenther Onkol. 2016, v.192, p.223-231.
13. Sini C., Fiorino C., Perna L., NorisChiorda B. et al. Dose-volume effects for pelvic bone marrow in predicting hematological toxicity in prostate cancer radiotherapy with pelvic node irradiation.//Radiother Oncol. 2016, v.118, p.79-84.
14. Morikawa L.K., Roach M. 3rd. Pelvic nodal radiotherapy in patients with unfavorable intermediate and high-risk prostate cancer: evidence, rationale, and future directions.//Int J Radiat Oncol Biol Phys. 2011, v.80, p.6-16.
15. Cox J., Stetz J., Pajak T. Toxicity criteria of the Radiation Therapy Oncology Group (RTOG) and the European Organization for Researchand Treatment of Cancer (EORTC).//Int J Radiat Oncol Biol Phys. 1995, v.31, p.1341-1346.
16. Holch P., Henry A., Davidson S., Gilbert A. et al. Acute and Late Adverse Events Associated With Radical Radiation Therapy Prostate Cancer Treatment: A Systematic Review of Clinician and Patient Toxicity Reporting in Randomized Controlled Trials.//Int J Radiat Oncol Biol Phys. 2017, v.97, p.495-510.
17. Bruner D., Hunt D., Michalski J., Bosch W. et al. Preliminary patient-reported outcomes analysis of 3-dimensional radiation therapy versus intensity-modulated radiation therapy on the high-dose arm of the Radiation Therapy Oncology Group (RTOG) 0126 prostate cancer trial.//Cancer. 2015, v.121, p.2422-2430.
18. Wortel R., Incrocci L., Pos F., Lebesque J. et al. Acute toxicity after image-guided intensity modulated radiation therapy compared to 3D conformal radiation therapy in prostate cancer patients.//J Radiat Oncol Biol Phys. 2015, v.91, p.737-744.
19. Girelli G., Franco P., Sciacero P., Cante D. et al. Image-guided Intensity-modulated Radiotherapy for Prostate Cancer Employing Hypofractionation and Simultaneous Integrated Boost: Results of a Consecutive Case Series with Focus on Erectile Function.// Anticancer Res. 2015, v.35, p.4177-4182.
20. Cakir A., Akgun Z., Fayda M., Agaoglu F. Comparison of three dimensional conformal radiation therapy, intensity modulated radiation therapy and volumetric modulated arc therapy for low radiation exposure of normal tissue in patients with prostate cancer.//Asian Pac J Cancer Prev. 2015, v.16, p.3365-3370.

1' 2017
AZƏRBAYCAN ONKOLOGİYA JURNALI

DODAQ XƏRÇƏNGİ XƏSTƏLİYİNİN MÜALİCƏSİ

R.Z.Miskinli ,O.B.Özgürsoy
Ankara Universiteti, Ankara ş., Türkiyə

LİP CANCER TREATMENT

R.Z.Mıskınlı ,O.B.Ozgursoy

Retrospective results of 59 patients who has been treated and followed with a diagnosis of lip cancer in Ankara University Medical Faculty Ibn-i Sina Hospital Ear, Nose and Throat Department was considered between 2000-2015 years. In our study we invastigated demographic data of the patients, histopathological diagnosis, treatment options and post-treatment follow-up. The data were consistent with the world literature.We suggest the selection of treatment method according to the patient and tumor. In our clinic we do surgery to patients.In our study we invastigated most of the patients were stage 1. We showed free survival was better in the early stages, and survival decreases when the stage increases.Today there is no imaging modality to detection 100%.of occult metastases. There is better survival rates in N0 neck. Therefore, we recommend elective neck dissection to N0 necks.If the surgical margin is positive, if there is lymph node metastasis extracapsular invasion, lymphovascular invasion and if the tumor is advanced stage postoperative RKT be given to prevent local recurrence is so important.

Key Words: Lip cancer, squamous cell carsinoma.

Dodaqlar ektoderma ilə ağız boşluğunun selikli qişası arasında yerləşən və vermilion deyilən keratinləşməyən keçid epitelindən ibarət olan piqmentli struktur ehtiva edən xüsusi bir anatomik orqanlardır. Dodaqlar, qida qəbulu, daşınıq, səs çıxartma kimi xüsusi funksiyalar üçün açılıb bağlanan və fərqli formaya düşən yumşaq və hərəkətli orqanlardır. Vermilion, fərdin irqi xüsusiyyətlərinə görə qırmızı-qəhvəyi rəngi arasında müxtəlif rənglərə çevrilən orqan olub, vermilion üzərində əmələ gələn xərçənglərə onkoloji təsnifata görə dodaq xərçəngləri deyilir [1]. Dodağın dəri ilə örtülən tərəfində ya da mukozal tərəfində olan xərçənglər isə dəri və ya ağız boşluğu xərçəngi kimi təsnif edilir.

Dodaq xərçənglərinin əmələgəlməsində xüsusilə günəş şüalarından birbaşa təsirlənmə formasında ultrabənövşəyi şüalanmaya məruz qalmanın əsas etioloji amil olduğu müəyyən edilmişdir.[2]. Fenotipik xüsusiyyətlər baxımından isə mavi gözlü və açıq rəngli bədənə sahib şəxslərin daha çox təsirə məruz qaldıqları göstərilmişdir. Digər etioloji amillərinə isə immunosupressiya, xroniki HPV infeksiyaları və xroniki spirtli içki istifadəsi daxildir. [3.4]. Bəzi mənbələrdə siqaret və qəlyan istifadəsinə görə termal qüsurun da etiologiyaya daxil olan digər bir amil olduğu barəsində məlumatlar vardır. Dodaq xərçəngi əmələ gələn şəxslərin peşə xüsusiyyətləri dəyərləndirildikdə əsasən fermer, dənizçi, çöl mühitində işləyən işçilər və oxşar peşə qruplarına daxil olduqları müəyyən edilmişdir. Dodaq xərçənginin əmələ gəlməsində gender və yaş xüsusiyyətləri baxımından isə kişilərin və beşinci-altıncı dekadadakı şəxslərin daha çox risk daşıdıqları müəyyən edilmişdir. [5].

Dodaq xərçəngləri baş-boyun nahiyəsinin melanomatoz olmayan dəri xərçəngləri istisna olmaqla, bütün xərçəng xəstəliklərinin 12 %-ni və ağız boşluğu xərçəngi xəstəliklərinin 25-30 %-ni təşkil edir.[6]. Dodaq xərçənglərinin içərisində aşağı dodaq xərçənglərinin rolu isə 88-98 % olub, onların 95 %-dən çoxu skvamoz hüceyrəli xərçəngdir və 70 %-i də yaxşı diferensialdır [7.8]. Yuxarı dodaq xərçəngləri qrupunda isə ən çox bazal hüceyrəli xərçəng müşahidə edilir [9]

Hal-hazırda dodaq xərçənglərinin müalicəsində əsas iki metodumuz vardır. Bununlardan birincisi şüa terapiyası (ŞT), digəri isə cərrahiyyədir. Hadisənin vəziyyətinə görə bəzən də xüsusi kombinasiya edilmiş müalicələr tətbiq olunur.

Dodaq xərçəngləri, erkən diaqnoz və müalicə ilə proqnozlaşdırıla bilən şişlərdir [10.11]. Gec diaqnoz və yetərsiz müalicə nəticəsində isə istər lokal yayılma və zonal servikal limfa düyünü metastazı və istərsə də uzaq metastaz (Ağciyər – Qaraciyər və sümüklər) səbəbi ilə pis nəticələr əldə edilir.

Dodaq xərçənginin cərrahi müalicəsindəki əsas prinsiplər bunlardır.

1.Onkoloji mühitə uyğun təhlükəsizlik zolağı saxlanılaraq şiş çıxarılır

2.Şişin boşaldığı zonal limfa düyünləri təmizlənir

3.Dodağın əvvəlki funksiyasını təmin edəcək rekonstruksiya tətbiq edilir

4.Kosmetik – estetik görünüşdə yetərlilik təmin edilir.

Dodaq xərçənglərinin erkən mərhələsində ŞT seçilərsə, aşağıda qeyd edilən göstəricilərə görə cərrahiyyəyə üstünlük verilir. T3-T4 zədələrində isə cərrahiyyə ilkin müdaxilədir.

a. Əməliyyatdan sonrakı dövrdə reabilitasiya müddətinin uzun olmaması,

b. Funksional və estetik nəticələrin əldə edilməsi,

c. Şüa terapiyasına görə müxtəlif əks təsirlərin olmaması,

d. Cərrahi sərhəddin şişin yayılması baxımından daha yaxşı qiymətləndirilməsi,

e. Son mərhələlərdəki hadisələrdə proqnozlaşdırma qiymətlərinin daha yüksək olması.

Dodaq xərçənginin radikal eksiziyası zamanı lokal yayılma ilə zonal limfa düyünü tutulması nəzərə alınaraq aşağıda qeyd edilən məsələlərə diqqət edilməlidir. [12].

Aşağı dodaq limfatikləri, mandibulanın sümüküstlüyünə yaxın yerləşdiyindən korpusu örtən sümüküstlüyü, mandibulanın aşağı kənarı daxil ediləcək formada dodaq preparatı ilə birlikdə çıxarılmalıdır.

Əllənən limfa düyünü olmayan hadisələrdə eyni tərəf boyunda l supraomohyoid boyun disseksiyası edilərək preparat ilə birlikdə çıxardılır (tamamilə). Bu əməliyyat terapevtik deyil, daha çox diaqnoz məqsədli olub, biopsiya təyinatlıdır və limfa düyün metastazı aşkar edilərsə, həmin tərəfə radikal boyun disseksiyası tətbiq edilməlidir.[11].

Birinci şiş orta xətdədirsə və əllənən limfa düyünü olmazsa, eyni əməliyyat ikitərəfli supraomohyoid boyun disseksiyası olaraq həyata keçirilir. Əllənən düyün olan hadisələrdə boyun disseksiya edilməlidir (radikal ya da funksional boyun disseksiyası). Aşağı dodaq xərçəngində erkən mərhələdə 5-10 % olan zonal limfa düyünü metastazının miqdarı T4 zədələrində daha yüksək olur.

Yuxarı dodağın yastı hüceyrəli karsinoması daha aqressiv müşahidə edilir. N0 vəziyyətində olduqda belə 30 % miqdarında gizli metastaz miqdarının olduğu qeyd edilmişdir.

Limfa düyünü metastazları olduqda boyun disseksiyası edilməlidir [13.14]. Zədənin mərhələsinə, yerinə görə bir tərəfli və ya ikitərəfli supraomohyoid boyun disseksiyası, radikal boyun disseksiyası və ya funksional boyun disseksiyası tətbiq edilir [13]. İri zədələrdə əməliyyatdan sonra şüa terapiyası da verilə bilər.

Orta olaraq 1 sm-dən kiçik olan zədələrdə V şəkilli irradiasiya tövsiyə edənlər olur. Bu formada kosmetik görünüş pozulmadan uğurlu nəticə əldə edilir. Daha böyük diametrli zədələrdə cərrahiyyə və ya cərrahiyyə və şüa terapiyası ilə birlikdə tətbiq edilir. Birincil cərrahiyyə xəstəliyinin kökünü kəsir, həmçinin cərrahi sərhədlərin patoloji müayinəsi və qüsurun kosmetik şəkildə aradan qaldırılmasını təmin edir.

Aşağı dodağın erkən dövr xərçənglərində elektrokoaqulyasiya, kriocərrahiyyə ilə eksiziya və şüa terapiyası tətbiq edilmişdir. Leykoplaziyaya da kriocərrahiyyə deyilmişdir. Cərrahiyyə, əsas müalicə vasitəsidir [15].

Sonuncu mərhələdəki şişlərdə çənə dərisi, mandibula, ağızın yumşaq toxumaları orta olaraq təxminən 2 sm təhlükəsizlik sərhədi buraxılmaqla eksiziya edilir. Dəri insiziyaları rekonstruksiya formasına görə və ikincil deformasiyaları minimuma endiriləcək formada həyata keçirilir. Aşağı dodağın mandibula və ağız əsasını infiltrasiya edən şişlərində parsial mandibula rezeksiyası ilə birlikdə boyun disseksiyası həyata keçirilərək birincil şiş tamamilə rezeksiya edilir. [16]. Mandibula invaziyası, şişli yerdən diş çıxarılması, rezeksiya sərhədinin pozitiv olması, servikal metastaz, T3-T4 şişlər residivlik riskini artırır. T3-T4 şişlərində daha geniş əməliyyat aparılmalıdır. Yuxarı dodağın alveol və maksilla və ya burun əsasına tərəf infiltrasiya edən şişlərində də təhlükəsizlik sərhədi saxlanılaraq enli rezeksiya edilməlidir.

Əsasən erkən mərhələli dodaq xərçənglərində şüa terapiyası, krioterapiya, elektrokoqulasiya kimi metodlar sınaqdan keçirilsə də, ilk növbədə cərrahiyəyə üstünlük verilməlidir [18]. 1 sm-ə qədər zədələrdə V insiziya, 1-2 sm olan zədələrdə isə W insiziyası və ya U insiziyasına üstünlük verilir [29].

Selik qişa ilə məhdudlaşan, səthi və ya premaliqn (bədxassəlik öncəsi) zədələrdə dekortikasiya tətbiq edilə bilər. Burada 0.5 sm təhlükəsiz sərhəd saxlanılaraq zədə eksiziya edilir. Dodaq, daxili selikli qişa və ya yanaq qişasının sürüşdürülməsi flebi formasında qüsurun üzərinə gətirilərək vermilionun kənarı təmin edilir.

Sonuncu mərhələli dodağın bədxassəli şişlərində qonşuda yayılma nahiyələri də daxil olmaqla 2 sm-lik təhlükəsizlik sərhəddi saxlanılaraq rezeksiya edilir. Nəticədə birincil şiş rezeksiyası + parsial mandibulektomiya + boyun disseksiyası ilə birlikdə edilərək preparat tamamilə çıxardılır.

Dodaq xərçəngi erkən dövrdə müalicə edilərsə, o baş-boyunun bədxassəli şişləri içərisində sağalma ilə nəticələnən bir xərçəng qrupudur.[18]. Əgər erkən dövrdə müalicə edilməzsə, çənə və alveolyar selikli qişaya tərəf uzanar. Daha da gecikən xəstələrdə şiş ağız əsasını, mandibula, maksilla, yanaq və hətta dilə tərəf uzanır.

Cərrahiyyənin üstünlükləri bunlardır; reabilitasiya və müalicənin daha az müddət davam etməsi, yaxşı funksional və kosmetik nəticənin əldə edilməsi, şüa terapiyasının erkən və gec ağırlaşmaların olmaması, cərrahi sərhədin histopatoloji olaraq daha yaxşı dəyərləndirilməsi, növbəti şişlərin daha yaxşı sağalması.

Dodağın rekonstruksiya metodları: Dodaq qüsurları üçün aparılan təsnifat sxemləri anatomik yerləşmə yeri (dəri, vermilion, tam qat), qalınlıq (qismən, tam qat) və dodağın ölçüsü ilə müqayisədə qüsurun nisbi eninə əsaslanır. Şəkil 1-da cərrahi rekonstruksiya metodları üçün istifadə edilən alqoritm göstərilmişdir.[17].

Material və metodlar. Bu işdə Ankara Universiteti İbn-i Sina Xəstəxanası KBB klinikasında 2000 -2015 illəri arasında dodaq xərçəngi diaqnozu qoyularaq müalicə edilən və əlaqə yaradıla bilən 59 xəstəyə aid məlumatlar retrospektiv olaraq dəyərləndirildi ki, həmin xəstələrdə dodaq xərçənginin etiologiya amilləri, proqnozlaşdırılması tədqiq edildi və müalicənin nəticələrinə baxış keçirildi. İşdə dodaq xərçənglərinin müalicəsi və



Şəkil 1. *Dodaq qüsurlarında cərrahi rekonstruksiya metodları alqoritmi*

onların proqnozlaşdırılması nəzərdən keçirildi

İşdə xəstələrin demoqrafik məlumatları, histopatoloji diaqnzoları, müalicə variantları və müalicədən sonra müayinələri analiz edildikdə, həmin məlumatların dünya literaturası ilə uyğun olduğu aşkar edildi.Seçiləcək müalicə metodunun xəstəyə və şişə görə müəyyən edilməsinin tövsiyə edilməsi ilə yanaşı, klinikamızın tövsiyəsi cərrahiyyədir.Xəstələrin çox hissəsinin 1-ci mərhələdə olduğu müəyyən edildi.

Erkən mərhələlərdə regenerasiyanın daha yaxşı olduğu, mərhələ artdıqca regenerasiyanın da azaldığı, erkən mərhələdəki şişlərdə boyunda limfa düyünü metastazının aşağı miqdarda olduğu, mərhələ artdıqca limfa düyününün metastaz riskinin də artdığı göstərildi.Müasir dövrdə heç bir tomoqrafiya metodunun gizli metastazları 100 % müəyyən etməməsi, N0 boyunlarda proqnoz və regenerasiya faizləri daha yaxşı olduğuna görə elektiv boyun disseksiyası tövsiyə edilmişdir. Cərrahi sinir pozitivliyində, limfa düyünü metastazı, ekstrakapsulyar və perinevral invaziya olduqda sonuncu mərhələ şişlərdə əməliyyatdan sonra Şüa terapiyası və kimyaterapiyanın verilməsi, lokozonal təkrar əmələgəlmənin qarşısını almaq üçün mühüm əhəmiyyət kəsb edir.

QOLTUQALTI LİMFA DÜYÜNLƏRİNİN ZƏDƏLƏNMƏSİ ZAMANI ŞÜA DİAQNOSTİKA

G.H .Qəmbərova
Azərbaycan Tibb Universiteti, Bakı ş.

COMPLEX ROLE OF RADIATION DIAGNOSTIC METHODS WITHIN DAMAGE OF AXILLARY LYMPH NODES

G.Qambarova

Spot scanning lymph nodes most time are determined CT examination.However USM is the best examination method for such lymph nodes. Because of the ,biopsy is hazardous for diagnostics of limph nodes/Reason for his hazard is little close of small veins surround of lymph modes to lung parenchyma/Biopsy is possibly only upon medical consultation/Compulsory medical consultation for such case is effectless of therpy

Key words: Diagnoses,lymph nodes,Mammographia,CT,MRİ,USM,biopsy

Limfa düyünlərinin dəyərləndirilməsi süd vəzi diaqnostikasında mühüm əhəmiyyət kəsb edir. Statistikaya görə zədələnməmiş limfa düyünündə pasientlərin yaşam göstərcisi 75 %,zədələnmiş limfa düyünündə 40 % təşkil edir. Belə halda neçə limfa düyününün zədələnməsi də əhəmiyyət kəsb edir. MTS zamanı ilk növbədə süd vəziyə yaxın limfa düyünüləri zədələnmiş olur. Ancaq 9% hallarda ilkin sıra limfalar zədələnməmiş ola bilir (3). Bəzi hallarda SVX süd vəzinin daxili limfa düyünlərinə, Rotter limfa düyünlərinə metastaz verir. Bu daha təhlükəli hal kimi dəyərləndirirlir və biopsiya məsləhət görülür.Limfa düyünlərinin vizual görüntüsü şiş prosesinin stadiyasında rol oynamır. Səbəb şüa diaqnostik metodlarla miksroskopik metastazların görülməməsidir. Müasir təbabətdə radionuklidlər və sinklə aparılan diaqnostika daha informativ sayılır. Limfa düyünləri götürüldükdən sonra onların histoloji analizinə baxılır və bu anda onların metastaza uğraması haqda son qərar verilir. Müasir şüa diaqnostikada limfa düyünlərinin spesifik və ya qeyri spesifik zədələnməsini qiymətləndirmək olar. Bunun üçün limfa düyünlərinin anatomiyasını dəqiq bilmək lazimdır.

Mammaoqrammalarda 40 dərəcədə bucaq altında çəkilmiş yan çəkilişdə limfaları görmək olar (3). Ancaq bu anda I sıranın limfa düyünlərini görünür. Belə ki, I sıra limfa düyünləri kiçik döş əzələsinin altında və lateral kənarında yerləşir. II qrup limfa düyünləri kiçik döş əzələsinin daxilində, III qrup limfa düyünləri isə bir qədər yuxarıda və medial səthdə yerləşirlər. Kiçik və böyük döş əzələsinin arasında isə Rotter limfa düyünləri yerləşir. Bəzi şişlər məhz bu limfa düyününə metastaz vermiş olur. Bu düyünlər parasternal,qabırğaarası əzələlərin dərinliyində yerləşir.

Şəkildəki görüntüdə 1952 təvəllüdlü qadın bir ildən çoxdur ki,sol süd vəzidə əlinə gələn bir nece kütlənin oldugu iddia edir. Son 3 ayda süd vəzi dərisi qızarmış və istilik hissi olur.Eyni zamanda qoltuqaltı nahiyyədə agrılardan şikayət edir.Aparilan Mammoqrafiya zamanı sol süd vəzidə vəzi toxuması üstünlük təşkil edir.Döş giləsi daxilə batıqdır.Giləarxasında və xarici aşağı kvadrantlarda müxtəlif ölçülü,nahamar kənarlı yüksək intensivlikli törəmələr qeyd edilir.Qoltuqaltı limfa düyünü hiperplaziyalıdır.İntensivliyi bir qədər yüksəldir.Limfa düyünü dəqiq kənarlı,nahmar konturludur.Sol süd vəzinin damar dəstəsi güclənmişdir.

Normada limfa düyünləri kofe dənəciyi formasında olur. Onların ölçüləri müxtəlif ola bilər. Bu ölçülər kliniki əhamiyyət kəsb etmir. Bəzi limfa düyünləri limfoid toxuma ilə birlikdə 5 sm və daha çox ölçüdə olur. Bəzən limfa düyünü parenxima ilə əhatələnə bilər, bu 70-80 % hallarda bədxassəli proseslərdə müşahidə olunur (5). Ancaq dəqiq diaqnoz qoymaq yenə də çətin olur. Ola bilər ki, limfa düyünü mikroskopik müayinədə ölçücə böyüməsin,ancaq normal ölçüdə olan limfa düyünü iltihabi proses nəticəsində böyümüş olsun (3). Mammoqram-



malarda qoltuqaltı limfa düyünləri 1/3 hallarda müşahidə olunur. Belə ki, limfa düyünülərinin intensivliyi normal toxuma intensivliyində ,bəzən də dah az intensivlikdə görünmüş olur. Bəzi limfa düyünləri yuxarı bayır kvadrantın arxa səthində olur. Mammoqrammalarda belə düyünləri o zaman görmək olar ki, onlar ya süd vəzi toxumasında sərt intensivlikdə,ya da sirf limfa düyünü fomasında olmalıdır (2).

Exoqrafiyada da mammoqramma kimi limfa düyünləri kofe dənəciyini xatırladr,kənar kamar və zəif exosiqnallı görünmüş olur (1). Mammoqrammadan fərqli olaraq USM müayinəsi bütün limfa düyünlərinin görmüş olur.

Belə düşünülür ki, MRT müayinə limfa düyünlərini metastatik zədələnməsinin aşkarlanmasında mühüm rol oynayır. Pasientə hadolin kontrast maddə yeritdikdən sonra 5 mm ölçüyə çatan limfa düyünləri görmək olar. Son zamanlar dəmir oksiddən istifadə olunur. Belə ki, yeridilmiş maddə limfa düyünlərində hopmursa,bu zaman T2 intensivlik dəyişilmir. Bu diaqnostikada 80-92% özünü doğruldur.Belə ki,yeridilmiş maddə limfa düyünün retikuloendotelial sisteminə daxil olur və T2 tezlikdə özünün paramaqnetik izlərini qoyur (1).

Exoqrafiya zamanı xosxassəli dəyişikliklər hamar,homogen strukturlu aşkarlanır. Limfa qapısı hiperexogen görünür. Bədxassəli dəyişiklər zamanı isə konturlar nahamar,parenximada hipoexogen ocaqlar görünə bilər.

Qoltuqaltı adenopatiya digər orqanların şişi zamanı da rast gəlinir. Limfomalar ,leykemiyalar, əsasən də xroniki limfasitar leykemiyalarda bu rast gəlinən haldır. Belə hallarda həddən artıq böyümüş və intensiv olur. Eyni zamanda agciyər, mədə-bagırsaq traktı, qalxanvarı vəz və melanomalar qoltuqaltı limfa düyünlərində hiperplaziyaya səbəb ola bilər.Təəssüflər ki, onları differensasiya etmək üçün xarakter əlamət mövcud deyil (6).

Qoltuqaltı limfa düyünülərini zədələyən digər xəstəliklərə vərəm, süd vəzidə əməliyyatdan sonrakı vəziyyət, spid, sarkaidoz, revmatid artrit,psoriaz və s göstərmək olar. Bəzən reaktiv limfa düyünləri rast gəlinə bilər ki,bu daha çox metastaz verməyən medulyar karsinomalarda rast gəlinir. Süd vəzidə əməliyyatdan sonra da limfa düyünlərində dəyişiklik rast gəlinə bilər, bunu isə demək olar ki, differensasiya etmək qeyri-mümkündür.

Limfa düyünlərinin böyüməsi ilə yanaşı, onun daxilində sərtləşmiş sahələr görmək mümkündür. Bu ən çox xoşxassəli prosesdə, həm də bədxassəli proseslərdə müşahidə oluna bilər. Bəzən formasız limfa düyünlər müşahidə oluna bilər ki ,bu qranulematoz formada və ya yag nekrozunda müşahidə oluna bilər (2). Mammoplastikada silikon yeridilmiş qadınlarda limfa düyünü kirəcləşmiş görünə bilər.Kalsinatlı limfa düyünləri pleymorf və qeyri-dəqiq aşkarlanır (4).

Limfa düyünlərinin dəqiq diaqnostikası sinklə aparılan radioizotop diaqnostikadır. Əgər yeridilən izotop limfa düyünlərinə hopursa ,bu,onun əməliyyat zamanı götürülməsinə,yəni limfoadenoektomiyasına göstərişdir. İkinci halda limfa düyünləri biopsiya ilə müayinə olunur.

Limfa düyünlərinin dəyərləndirilməsində PET müayinə böyük rol oynayır 1997-ci ildə Adlerlin verdiyi təsnifata görə,həsssaslıq,spesiflik və dəqiqlik təqribən 95, 66, 77 % təşkil etdi.Ancaq mikroskopik limfa düyünləri haqqında PET heç bir məlumat verə bilmir. Müasir PET-KT eyni vaxt ərzində morfofunksial dəyişikliyi görmüş olur. KT zamanı yeridilmiş RFP limfa düyünündə toplanır və böyümüş görünür .Ancaq buna baxmayaraq metastatik və ya iltihabi limfa düyününün dəyişilmiş olduğunun RFP hiperfiksasiyasına görə dəyərləndirmək olmur.

Mammoqrafiyada xoşxassəli limfa düyünləri hamar konturlu olur və piy toxuma ilə əhatələnir.Həmin limfa düyününün intensivliyi süd vəzi parenximasına yaxın olur. Belə anda limfa düyününü böyük olması kliniki informativlik daşımır. Əgər limfa düyününün ətrafında sərt toxuma və eyni zamanda qeyri hamarlıq müşahidə olunursa bu bədxassəli zədələnməyə xas ola bilər .

Metastazların makroskopik qiymətləndirilməsi üçün kontrastlı MRT və PET müayinəsindən yararlanmaq olar. Qeyd etmək lazımdır ki,bu müayinələr əsasən mərkəzi və parasternal limfa düyünlərini xarakterizə edir.

Nadir hallarda böyümüş limfa düyünləri xərçəngin erkən əlaməti ola bilər, hansıki mammoqrammalarda və USM-də heç bir kütləyə rast gəlinməsin.Unutmaq lazım deyil ki, metastaz verən limfa düyünləri ilə normal limfa düyünləri eyni görünüşə malikdir. Ona görə də normal limfa düyünlərinin görülməsi heç zaman xərçəngi inkar etmir.Ona görə biopsiya hər zaman son informativ kriteriya sayılır (4).Mammoqrammalarda normalı limfa düyündən azca da olsa metastaz vermiş limfa düyünü bir qədər sərt intensivlikdə qeyd edilir. Zədələnmiş limfa düyünləri adətən hamar kontura malik olur. Nadir hallarda kənarlar ulduzvari görünüşdə ola bilər. Bu görüntü şişin bioloji aqressiv olduğunu göstərir və ən azı üç limfa düyününün hipeplaziyasında rast gəlinir. SVX olan qadınlarda adətən hissəvi və ya tam exogen görüntü,ocaqlı və ya diffuz exogen zəif görüntü və qeyri dəqiq kənarlı düyünlər görünə bilər. Bəzi hallrda limfa düyününün köndələn ölçüsü böyüyə bilər.

Açar sözlər: diaqnostika, limfa düyünləri, mammoqrafiya, süd vəzi ultrasəs müayinə, diaqnostik görüntüləmə, biopsiya, süd vəzi MRT, süd vəzi PET

ƏDƏBİYYAT:

1. Клиническая маммалогия. Под редакцией Харченко В.П.,Рожковой Н.И. «Стром», 2005, 196 с.
2. Фищер Баум. Заболевания молочных желез. 2009, с. 219-221
3. Труфанов Г.Е. Лучевая диагностика заболевании молочных желез, 2010, 535 с.
4. ЗаболотскаяН.В. Новые технологии в ультро звуковоймам мографии. М «Фирма», 450 с.
5. Liberman L., Bracero N., Vuolo mA. et al .Dynamic breast MR imaging:are signal intensity time course data useful for differential diagnosis of enhancing lesions//AJR, 2008, p.900
6. Harnien Zonderlanda and Robin Smithuis Skala BİRADS İN MAMMOQRAPHY 2015

1' 2017
AZƏRBAYCAN ONKOLOGİYA JURNALI

HOCKİN VƏ QEYRİ-HOCKİN LİMFOMALARI ZAMANI MÜŞAHİDƏ EDİLƏN ANEMİYALARIN ETİOPATOGENEZİ HAQQINDA MÜASİR FİKİRLƏR

N.T. Həsənova, A.Y. Qazıyev
Azərbaycan Tibb Universiteti, Bakı ş.

MODERN VIEW ON ETIOLOGY AND PATHOGENESIS OF ANEMIA THAT OBSERVED IN HODGKIN'S AND NON-HODGKIN'S LYMPHOMAS

N.Hasanova, A.Gaziyev

There was a literature review of etiology and pathogenezis of anemia that is observed in Hodgkin and non-Hodgkin lymphomas in this article. Article also included the information about molecular mechanisms and correction mays of lymphoma associated anemia.

There was determined the diaqnostic value of tumor farmation and erythropoetic disorders' methabolic markers such as transferrin, ferritinin,ferroportin anemia development.

Key words: Hodgkin and Non-Hodgkin lymphomas, anemia,chemotherapy, erytropoetin.

Onkoloji xəstəliklərin böyük bir qrupunu qanyaradıcı və limfoid toxumaların bədxassəli şişləri – hemoblastozlar təşkil edir. Azərbaycanda bədxassəli şişlərlə xəstələnmənin ümumi strukturunda hemoblastozların payı kişi cinsi üçün 7,85%, qadın cinsi üzrə 7,3%, hər iki cins üzrə 7,57% təşkil etmişdir (1). Bu qrupdan olan Hockin və qeyri-Hockin limfomaların yeni müalicə metodları və bunun nəticəsində əmələ gələn ağırlaşmalar tədqiqatçıların daim diqqət mərkəzindədir (25). Hockin və qeyri-Hockin limfomalarının xəstələnmə və ölüm göstəricilərinin hər il artması və müalicə prosesi zamanı ağırlaşma hallarının yüksək olması bu problemin öyrənilməsinin vacibliyini əks etdirir (3). Hockin limfomaları (HL) onkoloji xəstəliklər arasında dünya üzrə 9-10-cu yerdədir. Qeyri-Hockin limfomaları isə bədxassəli şişlərlə xəstələnmənin ümumi strukturunda 2-3% təşkil edir. Statistik araşdırmaların nəticəsinə əsasən, Hockin limfomalarının rast gəlmə tezliyi hər 100 000 nəfərə 1,0; ölüm göstəricisi tezliyi 0,4 təşkil etmişdirsə, qeyri-Hockin limfomalarında bu göstəricilər müvafiq olaraq 5,1 və 2,7 olmuşdur (9). Onu da qeyd edək ki, XX əsrin əvvəllərində Hockin limfoma diaqnozu təsdiqlənmış olan xəstələrin 5 illik yaşama göstəricisi təqribən 5% təşkil edirdisə,innovasion müalicə proqramlarının tətbiqi nəticəsində 60% dən çox xəstədə 20 illik residivsiz yaşama göstəricisi müşahidə edilir (2). Xəstəlik ilkin mərhələdə aşkar olunduğu təqdirdə bu göstərici 90%-ə yaxınlaşır.

Son illər çoxsaylı müşahidə və araşdırmalar nəticəsində aydın olmuşdur ki, anemiyalar onkoloji xəstəliklərin ən çox rast gəlinən patologiyalarindandir. Prosesin kəskinliyi xəstənin yaşından, aparılan müalicədən və neoplaziyanın yayilma dərəcəsindən asılıdır. ECAS-ın yarim il ərzində 15min xəstə üzərində apardığı araşdırmalar nəticəsində məlum olmuşdur ki, diaqnoz təsdiqləndiyi zaman xəstələrin 39%-ində ilkin olaraq, anemiyası olmayan xəstələrdə isə sonradan müalicə zamanı 69% halda anemiya aşkarlanmışdır (5). İkincili anemiya əksər hallarda kimyəvi və ya şüa terapiyası alan xəstələrdə müşahidə edilir. Bunun nəticəsi olaraq şişəleyhinə aparılan terapiyanın effektivliyinin aşağı düşməsi, şişin aqressivlik dərəcəsinin artması və yanaşı xəstəliklərin inkişaf etmə riski ehtimalı yüksəlir.

Onkoloji xəstələrdə anemik sindrom-mürəkkəb simptomokompleks olmaqla yanaşı, yalnız qanın kəmiyyət və keyfiyyət göstəriciləri ilə deyil, həm də dəmir metobalizminin daha müasir laborator araşdırmaları ilə təyin edilir və differensial diaqnostika məhz bu baza göstəricilərinə əsaslanır (7).

Onkoloji xəstəliklər zamanı müşahidə edilən xroniki anemiyanın təsnifatı NCICTC (National Cancer Institute Common Terminology Criteria version 3.0) və yaxud EORTC (European Organization for Research and Treatment of Cancer) sisteminin təsnifatina uyğun olaraq müəyyənləşdirirlər (30,31). Hemoqlobinin miqdarından asılı olaraq ağırlıq dərəcəsinə görə növbəti formalar ayırd edilir: I ağırlıq dərəcəsi—yüngül anemiya, hemoqlobinin səviyyəsi normal göstəricilərdən aşağı olsa da, 100 q/l-dən az deyil; II ağırlıq dərəcəsi— hemoqlobinin səviyyəsi 80–99 q/l (orta anemiya); III dərəcə — hemoqlobinin səviyyəsi 79–65 q/l (kəskin anemiya); IV ağırlıq dərəcəsi— hemoqlobinin səviyyəsi 64 q/l və daha aşağı(ağır və ya təhlükəli anemiya). Bu təsnifat hemoqlobinin kəmiyyət göstəricilərinə əsaslanır və anemiyanın korreksiya metodlarının seçilməsinə imkan yaradır ki, bu da patogenetik (EPO preparatlarının təyini), əvəzləyici (eritrositlərin transfuziyası) və müşahidəedici ola bilər (19).

Qanda hemoqlobinin miqdarının azalması xəstələrin ümumi vəziyyətinə mənfi təsir edir. Ümumi zəiflik, fiziki və əqli yükə qarşı tolerantlığın zəifləməsi, həmçinin həyat keyfiyyətinin aşağı düşməsi anemiyanin ilk təzahür forması hesab olunur. Anemiya və onun nəticəsi olaraq meydana çıxan toxuma hipoksiyası onkoloji patologiya, o cümlədən limfomalar zamanı aparılan kimyəvi terapiya, şüa müalicəsinin nəticəsinə mənfi təsir edə bilər. Hipoksiya şişin bioloji xüsusiyyətlərini dəyişmə imkanlarina malikdir. Oksigen aclığına məruz qalmış hüceyrə metabolizm yollarını dəyişməklə yanaşı, uyğunlaşma mexanizmlərini də işə salır. Nəticədə molekulyar dəyişikliklərə səbəb olan HİF-1 ailəsinə məxsus genlər aktivləşir, damar-endotelial inkişaf faktoru ifraz olunur (VEGF). VEGF isə şiş toxumasında yeni damarların əmələ gəlməsini tənzimləyir və onun inkişaf və metastazvermə qabiliyyətini artırır. Dərin hipoksiya öz növbəsində xromosom dəyişikliklərinin- spontan mutasiyalarin sayını artırır. Hüceyrənin hipermutabel vəziyyəti apoptozu müəyyən edən p53 geninin sıradan çıxması ilə əlaqələndirilir (12). Apoptozun tormozlanması şişin kimyəvi və şüa terapiyasına olan həssaslığını xeyli dərəcədə azalda bilər. Caro J.J və Salas M.M öz araşdırmalarında anemiyalı onkoloji xəstələrdə anemiyası olmayan xəstələrə nisbətən ölüm riskinin 65% yüksək olduğunu göstərmişdilər. Limfomalı xəstələrdə isə daha çox autoimmun hemoliz müşahidə olunur. Xəstələrin bir qismində qanda hemoqlobinin miqdarının azalması tam bəlli olmayan səbəblərdən baş verir ki, bu özünü sitokinlərin hiperproduksiyası ilə göstərmiş olur (interleykin-1, interleykin-6, şişin nekroz faktoru, interferon-g) (22). Göstərilən sitokinlər sümük iliyi tərəfindən ifraz olunan eritrositin yaranma mərhələlərinə, yaşama qabiliyyəti və dəmir mübadiləsinə pleyomorf şəkildə neqativ təsir göstərir. Şişin nekroz faktoru dəmirin utilizasiyasını tormozlamaqla yanaşı eritrositlərin membranını məhv edir. Laborator təcrübələrdə məlum olmuşdur ki, şişin nekroz faktoruna qarşı antitellərdən istifadə edildikdə eritrositlərin normal yaşama qabiliyyəti bərpa olunmuşdur. Şişin nekroz faktoru həmçinin eritroid kök hüceyrələrinin sümük iliyindəki reseptorlarina təsir edərək onlarin apoptozuna səbəb olur (17).

Limfomalar zamanı anemiyaların əmələ gəlməsində interleykin-6 böyük əhəmiyyət kəsb edir. Onun təsiri nəticəsində qaraciyərdə hepsidin ifrazı artır. 25 aminturşu ardıcıllığından ibarət olan bu peptid qanda sirkulyasiya etdikdən sonra böyrəklərdən xaric olur və dəmirin makrofaq ilə bağırsaq epitel hüceyrələrindən hüceyrədənkənara və plazmaya daxil olmasının neqativ requlyatoru rolunu oynayır (14). Qeyd edək ki, enterosit və makrofaqlardan dəmirin nəqlini həyata keçirən protein ferroportin-1 adlanır (1). Bu protein ikivalentli dəmiri membrandan nəql edərək plazmada transferrini ilə əlaqələndirir. Ferroportin həmçinin hepsidin üçün reseptor rolunu oynaraq onun əsas requlyatorudur. Hüceyrə membranında hepsidin ilə ferroportinin birləşməsi "hepsidin-ferroportin"kompleksinin internalizasiyası və nəticədə hər iki zülalın lizosomal dağılmasına gətirib çıxarır. Beləliklə, hepsidin makrofaqlardakı ferroportinin funksiyasına təsir edərək, bağırsaq hüceyrələrindən dəmirin daxil olmasını blokada etməklə, nəticədə plazmada dəmirin konsentrasiyasının kəskin azalmasına səbəb olur. Bu isə öz növbəsində eritropoez prosesi üçün vacib olan dəmir ehtiyatlarının azalmasına gətirib çıxarır (30). Hesab edilir ki,hepsidin dəmirin mikrob hüceyrəsinə daxil olmasının qarşısını alaraq həm də antimikrob funksiyasına da malikdir ki, bu da onun infeksiya zamanı artan iltihab mediatorlarına qarşı həssaslığının yüksək olması ilə izah edilir. Lakin mikrob əleyhinə yönəlmiş bu reaksiya digər tərəfdən qeyri infeksiyon səbəblər zamanı, o cümlədən şiş prosesində dezadaptasiyaya səbəb olur. Nəticədə immun sistemin xroniki aktivizasiyası baş verir, orqanizmdə dəmir ehtiyatının kifayət qədər olmasına baxmayaraq, "fuksional dəmir defisiti" meydana gəlir. Onkoloji xəstələrdə bu defisiti dəyərləndirmək üçün, transferrinin doyma dərəcəsini təyin edilir ki, bu göstərici isə 20%-dən aşağı olmalıdır (15).

Dəmirin homeostazı özü-özlüyündə unikal proses olub, bir sıra zülalların iştirakı ilə həyata keçir. Bu prosesdə dəmirdaşıyıcı zülallardan ən əhəmiyyətlisi olan ferritin, transferrin və laktoferrini xüsusi qeyd etmək istərdik. Dəmirin ifrat dərəcədə depolaşması zamanı ferritin zülalın bir hissəsini itirərək həllolunmayan hemosiderinə çevrilir.Orqanizmdə dəmir ehtiyatlarının miqdarının qiymətləndirilməsi üçün zərdabda ferritinin təyini vacib hesab edilir. Belə ki, ferritinin səviyyəsinin artması qaraciyər hüceyrələrinin iltihabı və ya zədələnməsi nəticəsində də ola bildiyi kimi, onun miqdarının normal olması isə limfomalı xəstələrdə dəmir ehtiyatının kifayət qədər olmasına dəlalət etmir. Qaraciyər zədələnməsinin ferritinin səviyyəsinə təsirini istisna eymək üçün, C-reaktiv zülal və alaninaminotransferazanın aktivliyinin təyini də məqsədəuyğun hesab edilir. Ferritinin miqdarının 100 nq/ml-dən aşağı olması yüksək ehtimalla dəmir ehtiyatı çatışmazlığından xəbər verir (26).

Onkoloji patologiyası olan xəstələrdə anemiyaların inkişafına səbəb olan vacib amillərdən biri də,tam və ya nisbi eritropoetin çatişmazlığıdır (29). Eritropoetin isə eritropoez prosesinin açar requlyatoru olmaqla, sümük iliyində eritroid kök hüceyrələrinin differensiasiya və proliferasiyasını stimulyasiya edərək apoptozun qarşısını alır. Aktiv eritropoetin 165 aminturşu və 18000 dalton molekulyar kütlədən ibarət polipeptid zəncirini təşkil edir (4). EPO-sintez edən hüceyrələr böyrəklərin qabıq qatında yerləşsə də,onun az bur qismi, təqribən 10%-i ekstrarenal ifraz olunur. Ümumiyyətlə, eritropoetinin ifrazının pozulması uzunmüddətli kimyəvi terapiya,platintərkibli preparatlar istifadə edildikdə daha çox baş verir.Şiş prosesində eritropoetinin miqdarının

və ya bu hormona qarşı həssaslığın azalma səbəbləri kifayət qədər öyrənilməmişdir (28). Lakin güman edilir ki, bu sitostatiklərin nefrotoksik və mielotoksik təsiri ilə əlaqəli olmaqla yanaşı, həmçinin iltihab əleyhinə yönəlmiş sitokinlərin ifrazı ilə izah edilir. Bir neçə tədqiqatda göstərilmişdir ki,"klassik"dəmir defisitli anemiyalardan fərqli olaraq,onkoloji xəstələrdə dövr edən endogen eritropoetinin səviyyəsi əhəmiyyətli dərəcədə aşağıdır. Sadalanan pozulmalar eritripoezin effektliyinin aşağı düşməsinə səbəb olur ki,bu zaman mövcud requlyator mexanizmlər qanda eritrositlərin normal səviyyədə saxlanılmasını təmin edə bilmir (20).

Klinik praktikada yeni polikimyəvi dərman terapiyası üsullarının tətbiqi nəticəsində limfomaların müalicəsinin effektliyi xeyli dərəcədə artmışdır (8). Lakin bu müalicələrin intensivliyi səbəbindən ağırlaşmaların sayı artır və xəstələrin həyat keyfiyyəti nəzərə çarpacaq dərəcədə aşağı düşür. Hockin və qeyri-Hockin limfomaları zamanı müşahidə edilən anemiyaların əsasən hipoplastik və hipoxrom xarakterli olduğu məlum olmuşdur (21).

Hoçkin və qeyri-Hoçkin limfomaları zamanı limfoproliferativ prosesin irəliləməsi və onkoloji patologiyanın dərinləşməsi, o cümlədən yayılması nəticəsində inkişaf edən anemiyalardan fərqli olaraq, şişəleyhinə yönəlmiş şüa və kimyəvi dərman terapiyası zamanı anemiyaya səbəb eritrositlərin parçalanması və mielosupressiya ola bilər (24,27).

Toxumaların oksigen təchizinin pozulma dərəcəsi ilə hipoksiyaya uyğuluğu təmin edən müəyyən genlər arasında qarşılıqlı əlaqənin olması müşahidə edilir. Bu genlərin aktivliyi yeni damarların yaranması prosesi-neoangiogenezə təkan verir (18). Belə olan təqdirdə, şiş toxumasının qan təchizatı kompensator olaraq artır və o, daha sürətlə inkişaf etməyə başlayır. Sübut edilmişdir ki, şiş toxuması ətraf toxumalardan daha az oksigenləşə bilir. Şişəleyhinə olan terapiya rejimi, hətta prosesin mərhələ və növündən asılı olmayaraq, hipooksigenləşmiş şiş müalicəyə daha pis tabe olur.Şiş toxumasında oksigenin konsentrasiyası qanda hemoqlobinin miqdarı ilə korrelyasiya təşkil etməyə bilər, lakin limfomalı xəstələrdə anemiya faktorunun olması artıq proqnozu mənfiyə doğru dəyişməklə,uzunmüddətli residivsiz yaşama ehtimalını azaltmış olur (16).

Beləliklə, limfomalı xəstələrdə anemiyaların patogenezinin əsasını aşağıdakılar təşkil edir:

1.Şiş hüceyrələri ilə sümük iliyinin infiltrasiyası və normal hemopoezin pozulması

2.İltihab əleyhinə olan sitokinlərin hiperproduksiyası

3.Endogen eritropoetinin çatışmazlığı və ya kifayət qədər sintez olunmaması

4.Dəmir defisiti

5.Şişəleyhinə aparılan terapiyanın mielosupressiv effekti (31).

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, dəmir çatışmazlığı aşkarlandıqdan sonra, düzgün korreksiya edildikdə xəstəliyin dinamikasına və xəstənin ümumi vəziyyətinə müsbət təsir edir, həyat keyfiyyəti göstəricilərini yaxşılaşdırır. ECAS-ın apardığı tədqiqatların nəticələrinə əsasən, ÜST-ün göstəricilərinə görə ən aşağı ümumi statusa malik xəstələrdə (2-4 bal) hemoqlobinin səviyyəsi daha aşağı olmuşdur ($p<0,001$).

Şiş prosesinin irəliləməsi nəticəsində əmələ gələn anemiya normositar və normoxrom, mikrositar və hipoxrom, yaxud makrositar ola bilər (13). Makrositar anemiya sümük iliyinin funksiya pozğunlugu ilə əlaqədar olsa da, mikrositar anemiya əksər hallarda hemolizin nəticəsi olub, dəmir mübadiləsinin pozulması ilə izah edilir (23). Bununla yanaşı, retikuloendotelial sistemdə dəmirin artıq miqdarda toplanması, sərbəst protoporfinin səviyyəsinin artması və xəstələrdə həzm traktından dəmirin sorulmasının azalması müşahidə edilir (6,11).

Ümumiyyətlə, əksər hallarda limfomalar gec və ya tez anemiyanın inkişafı ilə müşayiət olunur. Bu kateqoriyadan olan xəstələrdə anemik sindromun səbəbləri,inkişaf mexanizmləri və patogenezi çox fərqli ola bilər və anemiyanın qarşısını alacaq profilaktik tədbirlər çoxsaylı tədqiqatların aparılmasına baxmayaraq hələ də tam olaraq işlənib hazırlanmamışdır (5). Lakin onu da qeyd etmək lazımdır ki, son illərdə anemiya əleyhinə aparılmış uğurlu terapevtik tədbirlər nəticəsində xəstələrin sosial adaptasiyasının yaxşılaşdırılmasına nail olunmuşdur. Xəstələrin həyat keyfiyyətinin öyrənilməsi hər bir xəstənin individual olaraq aparılan terapiyaya qarşı reaksiyasını təhlil etməyə imkan yaradır (10).

Açar sözlər: Hoçkin və qeyri –Hockin limfomaları, anemiya, kimyaterapiya, eritropoetin.

ƏDƏBİYYAT:

1. Qazıyev A.Y. Azərbaycanda bədxassəli şişlərin epidimiologiyası, tibbi, demoqrafik və sosial-iqtisadi aspektləri. /Tibb elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya., Bakı, 2005, 412 səh.
2. Андреев Г.И. Ферритин как маркер железодефицитной анемии опухолевый маркер //Коммерческая биотехнология.-2004, с1-15.
3. Бесова Н.С. //Современная онкология 2009: т.4, с.8-14.
4. Жуков Н.В. //Клиническая онкогематология 2009; т.2, с. 176-184.
5. Bennett C.L.,Silver S.M.,Djulbeqovic B.et al.Venous thromboembolizm and mortality associated üith recombinant erythropoietin and darbepoetin administration for the treatment of cancer –associated anemia// JAMA. 2008.v.13, p. 33-36
6. Bokemeyer C. Aapro MS, Courdi A et al.// Europe J Cancer 2007, v. 43, p.258-270.
7. Hagerty K.J. //Oncological Pract. 2008, v.4, p.267-270.
8. Leyland-Jones B, Semiglazov V, Paulicki M. //J. Clinical Oncology 2005, v.23, p. 5960-5972.
9. Ludwig et al. //Europ J. Cancer 2004,v. 40, p.293-306.
10. Rossi E. //Clinical biochem. Rev. 2005, v.26, p.47-49.
11. Stanworth S.J. Cockburn HAC, Boralessa H. et al. //Vox Sanguins 2002, v.83, p.352-357
12. Waltzman R, Croot C. //Oncologist 2005, v.10, p.642-650
13. Н.А.Романенко, О.Е.Розанова, Т.В.Глазанова, К.М.Абдулкадыров. Роль провоспалительных цитокинов

в патогенезе анемии у пациентов злокачественными заболеваниями лимфатических ткани //Вестник гематологии.2014, т.10, с.58-59.
14. Weiss,G.,Goodnouugh,L.T. Anemia of Chronic Disease // NEJM -2005,v.352, p.1011-1023.
15. Vapuel P., Mayer A., Höckel M. Tumor hypoxia and malignant progression.//Methods Enzymol.2004.v.381, p.335-354.
16. Osterborg A,Brandberg Y.et.al.İmpact of epoetin-beta on survival of patients üith limphoproliferative malignancies:long-term follow up of a large randomized study.//Br.J Hematol 2005,v.129, p.206-209.
17. Bennett C.L., Luminari S., Nissenson A.R. et al. Pure red-cell aplasia and epoetin therapy. //N. Engl. J. Med., 2004, v. 351, p.1403–1408.
18. Блиндарь В. Н., Зубрихина Г. Н, Матвеева И. И. Алгоритм современной лабораторной диагностики анемического синдрома онкологических больных // Клин. лаб. диагн. 2012.,№ 7, с. 19-25
19. Зубрихина Г. Н., Блиндарь В. Н., Матвеева И. И. Анемический синдром у онкологических больных // Вестн. РОНЦ им. Н. Н. Блохина РАМН. 2009.,т. 20, с. 57-62.
20. Рукавицин О. А. Актуальные вопросы диагностики и лечения анемии при хронических заболеваниях // Онкогематология. 2012., т. 5, с. 296-304.
21. Smith RJr, Aapro M, Ludwig H.//J Clin Oncol 2008, v.26, p.1040-1050.
22. Overgaard J, Hoff C, Sand Hansen H. Presented at 14th European Cancer conference, Barselona, Spain, September 23-27, 2007: abst 6LB.
23. Boblius J, Schmidin K, Briiillant C. //Lancet 2009, v. 373, p.1532-1542.
24. Santos F.P., Alvarado Y., Kantarjian H. et al. Long-term prognostic impact of the use of erythropoietic-stimulating agents in patients with chronic myeloid leukemia in chronic phase treated with imatinib. //Cancer 2011, v.117, p. 982−991.
25. Passamonti F., Rumi E., Arcaini L. et al. Blast phase of essential thrombocythemia: A single center study. //Am J Hematol 2009, v.84, p.641−644
26. Filatova L.V., Tarasenkova A.A., Semiglazova T. Iu., Gershanovich M.L. Fundamental approaches to the treatment of refractory and relapsed Hodgkin lymphoma. //Вопросы онкологии. 2012, т.58, с.443-453.
27. Сараева Н. О. Механизмы развития анемии при гемобластозах // Гематол. и трансфузиол. 2007, т. 52, с. 31-37.
28. Engert A., Diehl V., Franklin J., Lohri A., Dorken B. et.al. Escalated-dose BEACOPP in the treatment of patients with advanced stage Hodgkin's lymphoma: 10 years of follow-up of the GHSG HD9 study // J. Clin. Oncol. 2009, v. 27, p. 4548-4554.
29. Barrett-Lee P. J., Ludwig H., Birgegard G., Bokemeyer C. et.al. Independent risk factors for anemia in cancer patients receiving chemotherapy: results from the European Cancer Anemia Survey // Oncology. 2006, v.70, p.34-48.
30. Павлов А. Д., Морщакова Е. Ф., Румянцев А. Г. Эритропоэз, эритропоэтин, железо. /Молекулярные и клинические аспекты. М.: ГЭОТАР-Медиа, 2011, 299 с.
31. Aapro M.S., Link H. September 2007 update on EORTC guidelines and anemia management with erythropoiesisstimulating agents. //Oncologist 2008, v.13, p.33−36.
32. Aapro M.S., Courdi A. et al. EORTC guidelines for the use of erythropoietic proteins in anemic patients with cancer: 2006 update. //Eur J Cancer 2007, v.43, p.258−70

1' 2017
AZƏRBAYCAN ONKOLOGİYA JURNALI

UŞAQLIQ BOYNU XƏSTƏLİKLƏRİ OLAN QADINLARIN QANINDA ONKOMARKERLƏRİN SƏVİYYƏSİ

İ.A.Səfərova, A.Y.Qazıyev, M.R.Quliyev
AzərbaycanTibbUniversiteti, Bakı.

THE LEVEL OF ONCOMARKERS IN BLOOD OF WOMEN WITH CERVICAL DISEASE

İ. Safarova, A. Gaziyev, M.Guliyev

This article contains the results of investigation of same oncomarkers blood level in cervical cancer patients.

The was determined a consentration of CEA, CA125, CA19-9, HCG and AFP in blood specimens of 53 cervix cancer patients, 25 patients with leucoplagia and 12 helthly women. As a result it was revealed that oncomarcersconsentration in blood of leucoplagia patients was higher than in helthly ones and also was higher in cervix cancer patients than in both of leucoplagia patients and helthly women.

Key words: cervix cancer, onkomarkers.

Müasir dövrdə əhalinin həyatı üçün əsas təhlükəni ürək-damar və onkoloji xəstəliklər törədir.Ekoloji vəziyyətin, həyat tərzinin və reproduktiv funksiyanın dəyişilməsi nəticəsində son onillikdə onkoloji xəstəliklərin rastgəlmə tezliyi surətlə yüksəlir. İnkişaf etmiş Avropa ölkələrində onkoloji xəstəliklər ölüm səbəblərinin 20 %- ni təşkil edir(4).Uşaqlıq boynu xərçəngi (UBX) ən çox təsadüf edilən bədxassəli şiş növlərindən biri olub , qadınlarda bədxassəli şişlərlə xəstələnmənin strukturunda süd vəzi xərçəngindən sonra II yeri tutur, qadınların sağlamlığı və həyatı üçün böyük təhlükə təşkil edir(6).Bu xəstəliyin ölkələr üzrə rastgəlmə tezliyi müxtəlifdir.Avropada hər il 50000, dünyada isə 500000 qadına UBX diaqnozu qoyulur(1).UBX qadınlarda bədxassəli şişlərdən ölümün strukturunda IV, qadın cinsiyyət orqanlarının bədxassəli şişlərindən ölümün strukturunda isə II yeri tutur. Yaş qrupları arasında aparılan retrospektiv analizgöstərir ki yuxarı yaş qrupları arasında xəstələnmə göstəriciləri azalsa da aşağı yaş qrupları arasında yüksəlib və 45-55 yaş arasında olan qadınlarda daha tez-tez rast gəlinir(5).UBX vizual müayinə ilə aşkar edilə bilən şişlərə aid olsa da , klinik simptomlar çox vaxt şiş prossesinin gecikmiş mərhələlərində təşəkkül tapdığından xəstələrin əksəriyyəti patologiyanın gecikmiş mərhələsində aşkar olunur(3).UBX- nin morfologiyası sahəsində mövcud olan mürəkkəbliklər səbəbindən xəstəliyin müalicəsi bəzən arzuedilən nəticəni vermir. Residiv və metastaz vermiş UBX olan xəstələrin proqnozu qeyri qənaətbəxşdir:1 illik yaşama göstəricisi cəmi 10-15 %-dir(10).Odur ki , UBX- nin erkən və differensial diaqnostikası , adekvat müalicəsi və profilaktikası müasir klinik onkologiyanın aktual problemi hesab edilir.UBX olan xəstələrdə onkomarkerlərin təyini xüsusi əhəmiyyət kəsb edir.Normal hüceyrələrlə müqayisədəşiş hüceyrələrində biokimyəvi prosseslərin gedişi dəyişilir və normal toxumalarda rast gəlinməyən birləşmələr sintez edilir.Bu birləşmələr onkomarkerlər adlanır.Şiş hüceyrələri tərəfindən onkomarkerlərin sintezinin əsas mexanizmi genomun anomal ekspressiyası hesab edilir ki,bu da embrional, plasentar, ektonik zülalların, fermentlərin,antigenlərin və hormonların sintezini şərtləndirir. Onkomarkerlərin qanda qatılığı şişin mərhələsindən və ölçüsündən asılıdır.Xəstəliyin erkən mərhələdə aşkarlanması üçün 100% spesifikliyə malik onkomarker müəyyən edilməmişdir(7,8,9).Hal hazırda 200 dən çox onkomarker məlumdur.Onkomarkerlər plasentar, onkofetal, metabolik və şiş hüceyrələrinin membranı ilə assosasiya olunmuş növləri vardır. Onkomarkerlər şiş hüceyrələrinin həyat fəaliyyəti və ya normal hüceyrələrin invaziv xərçəng hüceyrələrinə cavab reaksiyası nəticəsində qanda və sidikdə rast gəlinən spesifik maddələrdir.Şiş markerlərinin müəyyən edilməsi şiş prossesinin erkən mərhələdə aşkar edilməsinə, geniş skrininq proqramlarının aparılmasına və xəstəliyin müalicə müddətində dinamik müşahidədə saxlanmasına imkan verir(2). UBX vizual lokalizasiyalı şişlərə aid edilsə də xəstəliyin erkən mərhələdə aşkar edilməsi üçün onkomarkerlərin istifadəsi prespektivli metod hesab edilə bilər.

Tədqiqatın material və metodları. Tədqiqat işi 2014-2017-ci illərdə Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasında uşaqlıq boynu xərçəngi ilə müayinə və müalicə olunmuş 53 nəfər xəstə üzərində aparılmışdır. Kontrol qrupu 12 nəfər sağlam şəxs, müqayisə qrupunu isə 25 nəfər uşaqlıq boynu leykoplagiyası olan şəxslər təşkil etmişdir.Uşaqlıq boynu xərçənginin kompleks diaqnostikası şüa, endoskopik, morfoloji və labarator müayinə üsullarından istifadə edilməklə aparılmışdır.Uşaqlıq boynu xərçəngi və leykoplagiyası olan xəstələrin qanında bəzi onkomarkerlərin CEA, CA 125, CA 19-9, HCG, AFPsəviyyəsinin müəyyən edilməsinə və qiymətləndirməsinə imkan verən tədqiqatlar aparıl-

Qruplar	CEA (pq\ml)	CA-125 (pq\ml)	CA 19-9 (pq\ml)	HCG (pq\ml)	AFP (pq\ml)
I qrup Sağlam şəxslər (kontrol qrupu) n=12	2,09±0,36 (0,4-5)	10,7±1,6 (4,5-25)	12,5±1,8 (5,7-26)	1,69±0,36 (0-4,8)	3,28±0,49 (1,2-7,5)
II qrup Leykoplagiya (müqayisə qrupu) n=25	3,70±0,29* (1,6-5,7)	15,5±1,4* (6,6-35)	17,3±1,2* (7,5-27)	2,62±0,20* (2-7)	4,99±0,34* (2,9-8)
III qrup Uşaqlıq boynu xərçəngi (xəstə qrupu) n=52	5,81±0,25** (3-10)	37,2±1,7** (14,9-53,4)	38,6±1,7** (10-52,4)	6,58±0,25** (4-14,2)	10,59±0,34** (6,5-17,3)

Qeyd:* kontrol qrupu ilə müqayisədə fərqin statistik etibarlılığı; **- leykoplagiya qrupu ilə müqayisədə fərqin statistik etibarlılığı.

mışdır. Qan serumunda CEA, CA 125, CA 19-9, HCG, AFP-nin qatılığı "BEST" (Rusiya Federasiyası) firmasının reaktiv dəsti vastəsilə immun-ferment üsulla təyin edilmişdir.Biokimyəvi analiz üsulları Azərbaycan Tibb Universitetinin klinik biokimya labaratoriyasında həyata keçirilmişdir.Alınmış nəticələr riyazi-statistik üsullardan istifadə edilməklə statistik təhlil edilmişdir.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Aparılmış çoxsaylı skrininq proqramları nəticəsində UBX-nin rastgəlmə tezliyinin və gecikmiş formalarının artması müşahidə edilmişdir. Xəstəliyin erkən diaqnostikası və monitorinqini həyata keçirmək üçün artıq mövcud olan diaqnostik metodların təkmilləşdirilməsini diktə edir. Bu aspektdə onkomarkerlərin istifadəsi mümkündür.

Təqdim edilən rəqəmlərdən göründüyü kimi kontrol qrupla müqayisədə leykoplagiyalı xəstələrin qanında CEA səviyyəsi 76,7% (p‹0,01) və ya 1,8 dəfə, CA125 səviyyəsi 45% (p‹0,05) və ya 1,45 dəfə, CA19-9 səviyyəsi 38,3% (p‹0,05) və ya 1,4 dəfə, HCG səviyyəsi 54,6 % (p‹0,05) və ya 1,5 dəfə, AFP səviyyəsi 52,3 % (p‹0,01) və ya 1,5 dəfə statistik etibarlı yüksəlmişdir. Leykoplagiyalı xəstələrdən fərqli olaraq UBX olan xəstələrdə CEA-nın qatılığının kontrol qrupla müqayisədə 2,8 dəfə(p‹0,001), leykoplagiyalı xəstələrlə müqayisədə isə 1,6 dəfə 57,3%, CA125 qatılığı kontrol qrupla müqayisədə 3,5 dəfə(p‹0,001),leykoplagiyalı xəstələrlə müqayisədə 2,4 dəfə, CA19-9 qatılığı kontrol qrupla müqayisədə 3,1 dəfə (p‹0,001), leykoplagiyalı xəstələrlə müqayisədə 2,2 dəfə, HCG qatılığı kontrol qrupla müqyisədə 3,9 dəfə (p‹0,001), leykoplagiyalı xəstələrdə 2,5 dəfə, AFP qatılığı kontrol qrupla müqayisədə 3,2 dəfə (p‹0,001), leykoplagiyalı xəstələrdə isə 2,1 dəfə statistik etibarlı yüksəlməsi müşahidə edilmişdir.

UBX elə bir xəstəliklər kateqoriyasına daxildir ki, onu erkən aşkar etmək və xərçəngönü dəyişikliklərin müalicəsi vasitəsilə qarşısını almaq mümkündür.

Beləliklə, tərəfimizdən aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, qanda onkomarkerlərin səviyyəsini yoxlamaqla UBX-ni erkən mərhələdə və ya hətta xərçəngönü xəstəlik mərhələsində aşkar etmək mümkündür.

Açar sözlər: uşaqlıq boynu xərçəngi, onkomarkerlər

ƏDƏBİYYAT

1. Bilir N. Serviks kanseri kontrolu çalışmaları və HPV aşısı. Halk sağlığı uzmanları derneği teknik raporları. №03/2007.
2. Алексеева М.Л., Гусарова Е.В., Муллабаева С.М., Понкратова Т.С. онкомаркеры, их характеристика и некоторые аспекты клинико-диагностического исползования (обзор литературы). // Проблемы репродукции, №3, 2005, с.65-79.
3. Новик В.И., Сафлонникова Н.Р., Урмангеева А.Ф. и др. Пути повышения эффективности цитологическогоскрининга рака шейки матки.//Материалы всероссийского семпозиума Новые информационные технологии в онкологической статистике , Спб., 2001, с.195-197
4. Рекомендации по применению онкомаркеров в клинической практике .Европейская группа по онкомаркерам. M: Roche- Diagnostics 1999.
5. Чиссов В.И., Старинский В.В., Петрова Г.В. Злокачественные новооброзавания в Росии в 2003 году (заболеваемостъи смертностъ)\\ M.-2005.-256с.
6. Artyn M., Castellsague X, Sanjose S. et al. World wide Burden of Cervical cancer in 2008//.Annaul of oncology, 2011, v.22, p.2675-86 .
7. Kuan S., Burd J., Basbaum C., Kim J. İnhibition of mucin glycosylation by aril-n-acetil-α-galactosaminides in human colon cancer cells. //J. Biol. Chem., 1989, v. 264, p.19271-7.
8. Kohler G.,Milstein C. Continuous cultures of fused cell secreting antibody of pedefined specificity.// Nature, 1975, v.275, p.485.
9. Liotta L., Steeg P., Stetler-Stevenson W. Cancer metastasis and angiogenesis: an imbalance of positive and negative regulation// Cell, 1991, v.64, p.327-34.
10. Cervical Cancer. Cervical Cancer: Cancers of the Female Reproductive System: Merck Manual Home Edition. Retrieved on 2007-03-24

1' 2017
AZƏRBAYCAN ONKOLOGİYA JURNALI

QASTROEKTOMİYADAN SONRA MÜXTƏLİF ÜSULLARLA, QIDA BORUSU İLƏ NAZİK BAĞIRSAQ ARASINDA ANASTOMOZLARIN MÜQAYİSƏVİ QİYMƏTLƏNDİRİLMƏSİ

N.Ə.Əsgərov, Ə.X.Kəimov, A.R Əliyev, E.Ş.Nağıyev
Milli Onkologiya Mərkəzi,
Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı ş.

COMPARATIVE ASSESMENT OF DIFFERENT METHODS OF ANASTOMOSES BETWEEN THE ESOPHAGUS AND THE SMALL INTESTINE AFTER GASTREKTOMY

A.Askerov, A.Kerimov, A.Aliyev, E.Naghiyev

In abdominal department of National Centre of Oncology gastrectomy was performed in 1568 patients in 10 years (2005-2016). Among them 612 (39,7%) were female patients and 956 (60,7%) - male patients. After gastrectomy anastomoses between the esophagus and small intestine were formed by Roux method or on a small intestine loop with Shalimov "plug" ("end to side"). 1385 (88,4%) of anastomosis were formed manually, while 183 (11,6%) - by circular stapler. Analysis of our material lead to the following conclusions: 1) after gastrectomy to avoid the vascularization disorders of small intestine loop within mesentery is necessary to observe the anatomical and physiological directions of the loop while stowing it instead of the resected stomach and the number of sutures should not exceed 4-6 in manual anastomosis; 2) circular stapler anastomosis between the esophagus and the small intestine ("end to side") is necessary in patients with tumor location in the lower third of esophagus and it is not excluded in patients with the tumor location in the cardial part of stomach especially in obese patients and in those for whom the duration of operations has an important role.

Key words: cancer, stomach, esophagus, small intestine, gastrectomy, anastomosis.

Mədə xərçəngi ilə xəstələnmənin getdikcə səviyəsi və ölüm faizinin artması, axırıncı 10 illər ərzində, müşaidə olunaraq bu səbəbdən elmi və praktiki onkologiyanın vacib probleminə çevrilir. Bir çox ölkərədə Avropa, ABŞ, o cümlədən Rusiya və Cənubi Qafqazda mədə xərçəngi ilə xəstələnmə səviyyəsi orta hesabla 100000 nəfərdən 28-30-da rast olunur [3,5,8]. Əfsuslar olsun ki, bu xəstələrin bir neçəsi, diaqnozun təstiqindən sonra heç də bir-iki il yaşamır və onuda qeyd etməliyik ki, təxminən bu xəstələrin yalnız 1/3 hissəsi radikal cərrahiyyə müalicəsinə ducar olunur. Xərçəng xəstəliyi mədənin müxtəlif nahiyələrində rast olunaraq və onların arasında aktual problemdən biridə, qastroektomiya və ozofaqo-yeyuno anastomozları aid edilir. Qastroektomiya bir qayda olaraq xərçəngin mədənin cismində və kardioozofaqal nahiyyələrdə təyin edildikdə aparılır. Belə ki, bu nahiyələrin xərçəngi 100000 nəfər əhaləsindən 3-5 xəstədə rast olunur [2,4,7,15].

Subut olunmuşdur ki, xəstələrdə mədə xərçənginin diaqnozu real olaraq zədələnmə səviyəsi yəni I-II mərhələ - 3-5%, III mərhələ - 30-40% və IV mərhələ 40-55% təyin olunaraq, subut olunmuşdur ki, mədə xərçənginin limfatik sistemində metastaz tezliyi təxminən 80%-90% təşkil edir [1,5,10].

Bir mənalı olaraq xərçəngin mədənin hansı nahiyəsində rast gəlməsinə baxmayaraq müalicəsi cərrahiyyə hesab edilir və mədənin distal və ya proksimal mədənin rezeksiyası o cümlədən total qastroektomiya əməliyyatları onkoabdominal cərrahlar yerinə yetirməlidir. Cərrahi əməliyyatlarından sonra xəstələrdə adətən müxtəlif residivlər birinci 2 il ərzində rast olunur və müxtəlif ədəbiyyat mənbələrə əsaslanaraq 5 illik yaşama bu xəstələrdə yalnız 20-25%hesab olunur və bunların yəni onkocərrahlar tərəfindən radikal edilməsi ilə yanaşı, adekvat olaraq maksimal olaraq mədə ətrafı limfaların diseksiyası ilə birlikdə böyük piyliyin tamlığla çıxarılması şərtlərindən asılıdır [3,9,11,13].

ABŞ-nın, Yaponiya hətda bir çox Avropa ölkələrində bu xəstələrin çoxunun operativ əməliyyatlarını ümumi cərrahlar tərəfindən yerinə yetirilməsi müsbət hesab edilməsi düzgün hesab etmək olmaz, məsəl üçün İngiltərə hər 5-6 xəstədə qastroektomiyadan sonra müxtəlif fəsadların baş verməsi, onlardan qoyulmuş anastomoz tikişlərin tütarsızlığının baş verməsi və ya rezeksiya sərhəddi şişə yaxın və bu xəstələrdə yaxın vaxtlarda şişin residivindən ölüm ilə nəticələrin [5,7,13]. Son illərin mənbələrinə fikir verdikdə qastroektomiyadan sonra baş vermiş fəsadların faizi aşağıya enərək təxminən orta hesabla 3-5% hesab olunaraq və bir çox fəsadların əsasını, qida borusu ilə nazik bağırsaq ilqəqi anastomozun tamlığının pozulması ilə bağlı olması və bilavasitə ölüm faizinin artması və orta hesabla 2-10% rast olunur.

Ozafaqo-yeyuno anastomozların tutarsızlığın baş

verməsi bir çox ədəbiyyatlarda anastomoz tikişlərin əlilə və ya mexaniki üsullara qoyulması ilə əlaqələndirirlər. Bir sözlə Rusiyada ozafaqo-yeyuno anastomoz əlilə tikişlərin qoyulmasına, amma ABŞ və başqa əcnəbi ölkələrində mexaniki-apparatla anastomoza üstünlük verilir [1,6,12,15].

Tədqiqatın məqsədi: Mədənin (cisimi, kardial, qida borusunun diafraqmal seqmenti və qida borusun aşağı 1/3 hissəsinin) xərçəngi olan xəstələrdə qastroektomiyadan sonra müxtəlif növ qida borusu ilə nazik bağırsağın ilgəgləri arasında, əlilə tikişlərin və mexaniki-stepler, anastomozların yaradılmasından sonar tamlığın müqaisəvi qiymətləndirilməsinə yönəlmişdir.

şı mədə xərçənginin ətraf üzüvlərə sirayyət edilməsi zamanı kombinə cərrahi əməliyyat, mədəaltı vəzinin, köndələn çənbər bağırsağın, qaraciyərin, diafraqmanın rezeksiyası və xolesistektomiya edilmişdir.

Qastroektomiyadan sonra müxtəlif növ qida borusu ilə nazik (acı) bağırsa ilgəgləri arasında üç-yana anastomoz yardılmışdır. Cərrahiyyə əməliyyatdan sonra mədə xərçənginin histomorfoloji quruluşunu öyrəndikdə müxtəlif dərəcəli adenokarsinoma – 1398 (89,1%), differensasiya olunmayan – 118 (7,5%), karsinoid – 43 (2,8%) və yasthüceyrəli – 9 (0,6%) təyin edilmişdir. Mədə xərçənginin 1568 mərhələlərinin təsfiri cədvəl 1-də verilmişdir.

Cədvəl 1. *Mədə xərçənginin mərhələləri histomorfoloji müainələri (bəd xassəli, TNM, şişlərin təsnifatı, 3-cü nəsir 2013 il, BXƏJ) əsasında təyin edilmiş.*

№	TNM	UJAC-mərhələ	Xəstələrin sayı	
			M.r.	%
1	$T_1N_2M_0$	II A	59	3,7%
2	$T_2N_0M_0$	I B	154	9,7%
3	$T_2N_1M_0$	II A	142	9,4%
4	$T_2N_2M_0$	II B	162	10,3%
5	$T_3N_0M_0$	II A	137	8,7%
6	$T_3N_1M_0$	II B	132	8,4%
7	$T_3N_2M_0$	II B	137	8,7%
8	$T_3N_3M_0$	III A	131	8,5%
9	T_3N_3M+	III B	112	7,6%
10	$T_4N_0M_0$	II B	106	6,7%
11	$T_4N_1M_0$	III B	108	6,8%
12	$T_4N_2M_0$	III B	102	6,4%
13	$T_4N_3M_0$	III C	96	5,1%

Material və metodlar: MOM-un və Ə.Əliyev adına AzDHTİ-nun onkologiya kafedrasının abdominal şöbəsində 10 il ərzində (2005-2016-ci illər) mədə xərçənginə görə 1568 xəstəyə qastroektomiya edilmişdir. Qadınlar 612 (39,3%) və kişilər 956 (69,7%) onların yaş həddi 38-78 orta hesabla 58 olmuşdur.

Bütün xəstələrin diaqnozu, müxtəlif kliniki-laborator, qarın boşluğu üzvlərin USM, KT, MRT, fibroqastroskopiya, biopsiya və histomorfoloji müainələr əsasında təyin edilmişdir. 1568 xəstədən mədənin cisimində 580 (38,1%), mədənin kardial şöbəsində - 758 (48,3%), qida borusunun diafraqmal seqmenti – 143 (9,1%) və qida borusun aşağı 1/3-də - 87 (4,4%) xəstədə təyin edilmişdir.

Qastroektomiyanı, xəstələrə yuxarı orta-orta kəsik laparatomiya ilə edilərək və şişin yerləşməsini bir daha dəqiqləşdirərək ehtiyac olduqda onlara qida borusunun sağ və sol tərəflərində sagital diafraqmatomiya plevra və nadır hallarda metiastenotomiya edilmişdir. Bunlarla yanaşı bu xəstələrə qastroektomiya ilə yanaşı limfodisseksiya edilmiş və onlardan D1səviyyəsində 603 (39,3%) və 965 (60,7%) xəstələrdə ilə limfodisseksiya D2-3 səviyəsində edilmişdir. 1568 xəstədən limfodisseksiya bərbər 703 (44,9%) splenoktomiya olunmuşdur.

123 (7,9%) xəstələrə qastroektomiya ilə yana-

Cədvəldən göründüyü kimi 1568 mədə xərçəngi olan xəstələrdə II A-III AB mərhələsi olan xəstələr üstünlük yəni 1413 (90,1%) təşkil etmişdir.

Qastroektomiyadan sonar qida borusu ilə nazik (acı) bağırsaq arasında anastomoz iki üsulla I-ci goşa ilgəgli kəməndə bənzər Şalimov tıxacı yaratmaqla – 482 (30,7%) və Ru üsulu ilə tək aparıcı elgəglə - 1086 (69,3%) xəstələrdə yerinə yetirilmişdir. Ru üsulunda bir çox hallarda ələxsus qida borusunun kardiayadan yuxarı rezeksiyası zamanı bir qayda olaraq nazik (acı) bağırsağın ilgəgini uzatmaqdan ötrü onun müşariyəsində bir neçə radiar damarların bağlamaq şərtilə sərbəst dartılma olmadan anastomoz yaradılır.

Bu usul bilavasitə qida borusunun diafraqma üstü və ya onun aşağı 1/3 hissəsinin rezeksiyası edilən zaman yerinə yetirilir.

Hər iki halda nazik (acı) bağırsağın tək və ya goşa ilgəgləri fizioloji-anatomik düzgün olaraq, çıxarılmış mədənin yatağına yerləşdirilir 1568 qastroektomiya olunmuş xəstələrdən əlilə tikişlərin qoyulmuş anastomoz – 1385 (89,4%) və mexaniki olaraq serkulyar-steplerlə - 183 (11,6%) anastomoz qoyulmuşdur (mexaniki apparat – COVİDİE EETM Made in USA Auto Suture TM, sircular stapler with DST Series Technology 31 mm-4,8 mm).

